**İtaliya saytı: Azərbaycan 2020-ci ildə yenidən kəşf ediləsi ölkədir**



Bax 3

**Prezident İlham Əliyev Paşinyanın utopik xəyallarını darmadağın etdi!**



Bax 4

**"Vətəndaş dialoqu" missiyasının nümayəndələri Azərbaycanda parlament seçkilərini müşahidə edəcəklər**



Bax 5




"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 007 (5972) 16 yanvar 2020-ci il. **Qiyməti 40 qəpik**

"Əlincə" AzərbaycanXeyriyyə Cəmiyyətinin orqanı.




*Heydər Əliyev Fondu bullyoz epidermoliz xəstəliyi olan uşaqları dərman preparatları ilə təmin edib*

Bax 3

## İlham Əliyev: "Avtomobil yollarının keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik"

Bax 2



## Azərbaycanlı tenor erməni sopranonu səhnədən qovdurdu




*Ermənilər bu dəfə beynəlxalq səviyyədə çətin duruma düşüblər. Belə ki, gələn ay baş tutacaq Drezden Opera Balında rüsvay olan ermənilər baş verən bir hadisədən sonra ciddi təlaş keçirib və narahat olmağa başlayıblar. Buna səbəb isə, azərbaycanlı opera müğənnisinin erməni müğənni ilə eyni səhnədə çıxış etməkdən imtina etməsidir...*

Bax 5

## Nikol Paşinyan istintaq komitəsində ifadə verib

**Ermənistanın baş naziri Nikol Paşinyan ifadə vermək üçün dünən istintaq komitəsinə gedib. AZƏRTAC Ermənistan mətbuatına istinadla xəbər verir ki, bu barədə Paşinyan özünün Facebook səhifəsində yazıb...**



Bax 9

## Həkimdən xəbərdarlıq: Qızardılmış yeməklərdən uzaq durun!



Gündəlik qida rasionumuzda qızardılmış yeməklər üstünlük təşkil edir. Lakin həmin qidaların tərkibində yüksək kalori və çox miqdarda yağ olur. Bu, da II tip şəkərli diabet və piylənməyə, ürək-damar sisteminin patologiyasına şərait yaradır...

Bax 16

## Pensiya artımları nə vaxt veriləcək? - Nazirlikdən açıqlama



"Pensiyaların artırılması istiqamətində növbəti addım kimi, bu ay ərzində əmək pensiyaları indeksləşdirilərək artırılacaq". Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov məlumat verib...

Bax 15

**20 Yanvar: Milli rəşadət tariximizin müəmmalı məqamları (I yazı)**




Bax 13

**"Sosial şəbəkələrdən asılılıq insanlarda fiziki və psixoloji fəsadların yaranmasına səbəb olur"**




Bax 11

**Qazaxıstanda Ermənistandan gətirilən avtomobilləri qeydiyyatsız sürməyə icazə verilməyəcək**



Bax 11

# İlham Əliyev: “Avtomobil yollarının keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik”

*Prezident İlham Əliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 15-də Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadəni qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham Əliyev diqqətə çatdırıb ki, keçən il Azərbaycanda bütün sahələr kimi, nəqliyyat sahəsi də inkişaf edib. Bu inkişaf həm real layihələrdə özünü göstərir, eyni zamanda, beynəlxalq təşkilatların hesabatlarında əksini tapır.***



Dövlət başçısı vurğulayıb ki, təkcə onu demək kifayətdir ki, keçən il avtomobil yollarının tikintisi istiqamətində rekord nəticə əldə edilmiş, 1300 kilometr avtomobil yolu çəkilmişdir. Beləliklə, həm şəhərlərarası nəqliyyatın işi yaxşılaşdırılmış, eyni zamanda, magistral yolların çəkilişi davam etdirilmiş, yüzlərlə kəndin yolu abadlaşdırılmış və yenidən qurulmuşdur:

Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanda nəqliyyat sahəsində görülmüş işlərə yüksək qiymət verib. Bütövlükdə Azərbaycanın nəqliyyat infrastrukturu Davosun hesabatında dünya miqyasında 31-ci yerdədir. Bu, kifayət qədər böyük göstəricidir. Bu göstəriciyə görə biz bir neçə inkişaf etmiş ölkəni də qabaqlamışıq. Avtomobil yollarının keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik. Dəmir yolu nəqliyyatının səmərəliliyinə görə 11-ci, hava nəqliyyatının səmərəliliyinə görə isə 12-ci yerdəyik.

Yəni, əslində, bu, onu göstərir ki, son vaxtlar nəqliyyat sahəsində aparılmış işlər ən yüksək qiymətə layiqdir. Bununla bərabər, keçən il çox önəmli dövlətlərarası layihələr icra edilmişdir. O cümlədən Azərbaycan-Rusiya sərhədində yeni avtomobil körpüsünün istifadəyə verilməsi çox böyük hadisədir. Çünki əvvəlki körpü 1950-ci illərdə tikilmişdi və demək olar ki, sıradan çıxmışdı. Yeni körpü Azərbaycan ilə Rusiya arasında həm nəqliyyat, həm ticarət əlaqələrinin inkişafına xidmət göstərəcək, eyni zamanda, bu körpü Şimal-Cənub nəqliyyat dəhlizinin tərkib hissəsidir. Hazırda Rusiya sərhədinə qədər yeni avtomagistral çəkilir və ilin sonuna qədər bu magistralın əsas hissəsi istismara veriləcəkdir.

Paralel olaraq, Astara şəhərindən İran sərhədinə qədər yeni magistralın çəkilişi nəzərdə tutulur. Bu məsələ İran tərəfi ilə razılaşdırılıb. Beləliklə, yük avtomaşınları Astara şəhərinə girmədən birbaşa İran istiqamətinə gedə biləcək və yeni avtomobil körpüsü də tikiləcəkdir. Bir neçə il bundan əvvəl iki ölkə arasında yeni dəmir yolu körpüsü tikilmişdir və Şimal-Cənub nəqliyyat dəhlizinin fəaliyyəti üçün bunun böyük əhəmiyyəti olmuşdur.

Əlbəttə, keçən il Şərq-Qərb nəqliyyat dəhlizi üzrə daha çox yük daşınmışdır. Bu da təbiidir, çünki Bakı-Tbilisi-Qars dəmir yolunun istismara verilməsindən sonra bu istiqamətdə böyük canlanma var. Təkcə Şərq istiqamətindən yox, eyni zamanda, Rusiyadan Azərbaycan ərazisindən Türkiyə və Avropa istiqamətinə yüklərin daşınması müşahidə olunur və ildən-ilə bu yüklərin həcmi artacaq. Beləliklə, açıq dənizlərə çıxışı olmayan Azərbaycan beynəlxalq Avrasiya nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir.

Builki investisiya proqramında nəqliyyat sektorunun inkişafı üçün kifayət qədər böyük vəsait nəzərdə tutulub. Eyni zamanda, avtomobil yollarının, dəmir yollarının çəkilişi ilə bağlı konkret layihələr icra ediləcəkdir. Bu il Ləki-Qəbələ dəmir yolu istifadəyə verilməlidir. Eyni zamanda, biz Bakı-Yalama və Xudat-Şahdağ dəmir yollarının layihələndirilməsinə və inşasına başlayırıq. Beləliklə, biz mövcud dəmir yollarının keyfiyyətini böyük dərəcədə artıracağıq və qatarların sürəti də buna uyğun olaraq artacaqdır.

## “Azərbaycandan xaricə gedən yüklərin həcmi artır və artacaq. Qeyri-neft sektorumuz artır, qeyri-neft ixracımız keçən il 14 faiz artıbdır”

Həmçinin biz şəhər nəqliyyatının inkişafına da böyük əhəmiyyət veririk. Bu il Bakı şəhərinə əlavə 300 müasir avtobus gətiriləcəkdir və bundan sonra da bu istiqamətdə işlər görüləcək. Eyni zamanda, mənim göstərişimlə yeni taksi avtomaşınları da gətirilməlidir. Bu məsələ ilə bağlı məlumat verin, kontraktlar imzalanıb, yoxsa yox və yeni taksilər şəhərimizə nə vaxt gətiriləcək?

**Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə:** Təşəkkür edirəm, cənab Prezident. Bu sualla bağlı qeyd etmək istərdim ki, Azərbaycanda 1500 ədəd “London taksisi” fəaliyyət göstərir. Bizim nazirliyin tabeliyində 1200 ədəd “London taksisi” vardır. Sizin tapşırığınıza əsasən, biz yeni, müasir standartlara cavab verən 100 ədəd “London taksisi” sifariş etmişik. Üç ay ərzində Azərbaycana gətiriləcək bu taksilərin üstünlüyü ondan ibarətdir ki, onlar yanacaqla deyil, elektriklə işləyir. Bir daha qeyd etmək istəyirəm ki, bu taksilər müasir standartlara tam şəkildə cavab verir.

**Prezident İlham Əliyev: İndi bizim digər şəhərlərimizdə taksi xidməti hansı səviyyədədir?**

**Ramin Quluzadə:** Cənab Prezident, biz regionlarda bu sahəyə daha çox diqqət yetirməliyik. Çünki regionlarda standartlara tam cavab verməyən nəqliyyat vasitələri var və biz bu istiqamətdə də öz işlərimizi aparırıq.

**Prezident İlham Əliyev:** Mən sizə tapşırıq verirəm ki, bu işləri ciddi təhlil edin. Hər bir şəhərdə nə qədər taksi fəaliyyət göstərir? Taksi avtomaşınlarının keyfiyyəti nə səviyyədədir? Təhlükəsizlik necə təmin edilir, hesablaşma necə aparılır? Biz elə etməliyik ki, bütün şəhərlərimizdə, ilk növbədə, böyük şəhərlərimizdə müasir taksi xidmətləri olsun. Müasir taksi dayanacaqları, sürücülərin hazırlanması, onların tibbi müayinədən keçməsi təşkil olunmalıdır. Hər bir sahədə olduğu kimi, bu sahədə də biz nağd hesablaşmadan kartla hesablaşmaya keçməliyik, taksometrlər quraşdırılmalıdır. Yəni, təkcə Bakıda yox, ilk növbədə, bütün böyük şəhərlərdə və ondan sonrakı mərhələdə digər şəhərlərdə.

Bu, eyni zamanda, avtobus nəqliyyatına da aiddir. Çünki hazırda Bakı və Sumqayıt şəhərlərində avtobusla sərnişin daşımaları müasir standartlara uyğundur. O da hər yerdə deyil. Hələ də Bakı şəhərində keyfiyyəti yüksək olmayan və istismar müddəti bitmiş avtobuslar fəaliyyət göstərir. Bu məqsədlə biz hər il ölkəmizə 300 avtobus gətizdiririk. Mənə verilən məlumata görə, Gəncə şəhərində avtobus təsərrüfatı köhnəlib. Digər şəhərlərdə nə qədər avtobus fəaliyyətdədir, nə qədər avtobus alınmalıdır? Əlbəttə ki, ilk növbədə, paytaxt Bakının bu məsələsi həll olunmalıdır. Amma digər şəhərlər də diqqətdən kənarda qalmamalıdır.

**Şəhərlərarası nəqliyyat məsələsi öz həllini necə tapır və bu sahədə hansı problemlər, hansı nailiyyətlər var?**

**Ramin Quluzadə:** Möhtərəm cənab Prezident, biz bir ay öncə şəhərlərarası gecə reyslərini istifadəyə verdik. Əsas məqsədimiz odur ki, bizim vətəndaşlar təkcə gündüz yox, eyni zamanda, gecə reyslərindən də istifadə etsinlər. Biz bu reysləri müasir standartlara cavab verən “MAN” tipli avtobuslarla həyata keçiririk. Eyni zamanda, biz bu gün mövcud avtobus parkını daha müasir standartlar səviyyəsində yeniləyirik. Artıq biz standartları təkmilləşdiririk. Gələcəkdə də biz iş adamları ilə bu standartlarla bağlı işlər aparacağıq.

**Prezident İlham Əliyev:** Bu da çox önəmli məsələdir. Çünki indi yolların keyfiyyəti artdıqca, şəhərlərarası marşrutlar yeni avtobuslarla təmin edilir. Əlbəttə ki, bu avtobuslar ən yüksək təhlükəsizlik normalarına uyğun olmalıdır. Bir halda ki, siz gecə reyslərinə başlamısınız, bu avtobusların keyfiyyəti, təhlükəsizliyi, sürücülərin hazırlığı, onların müayinədən keçmələri - bütün bunlar mütləq diqqət mərkəzində olmalıdır. Bu sahədə də təftiş aparılmalıdır, avtobusların neçə faizi standartlara tam cavab verir? Bu sahədə daha çox özəl şirkətlər fəaliyyət göstərir. Onlara da dəstək göstərilməlidir ki, bu istiqamətdə öz fəaliyyətlərini daha yüksək səviyyədə təmin edə bilsinlər.

*Ardı Səh. 3*

# İlham Əliyev: “Avtomobil yollarının keyfiyyətinə görə biz dünyada 27-ci yerdəyik”

*Prezident İlham Əliyev Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar nazirini qəbul edib*

Əvvəli-Səh-2

Bir məsələ də yük daşımaları ilə bağlıdır. Azərbaycandan xaricə gedən yüklərin həcmi artır və artacaq. Qeyri-neft sektorumuz artır, qeyri-neft ixracımız keçən il 14 faiz artıbdır. Ancaq bizim bir çox yüklərimizi xarici şirkətlər daşıyır. Bu da onunla bağlıdır ki, Azərbaycanda yük daşımalarında istifadə edilən avtomaşınlar, tırlar yerli şirkətlər tərəfindən az təmin olunur. Ona görə bu məsələyə də diqqət yetirmək lazımdır. Birinci növbədə, təhlil aparılmalıdır və mənə məruzə edilməlidir ki, yük daşımalarının neçə faizi Azərbaycan şirkətləri tərəfindən icra edilir? Tır parkına baxış keçirilməlidir. Onların vəziyyət nə yerdədir və onların sayı bizim artan istehsalımıza uyğundur, yoxsa yox?! Əgər yeni tır maşınlarının alınmasında dövlət özəl şirkətlərə kömək edə bilərsə, biz buna hazırıq. Bu sahəyə də güzəştli kreditlər verilə bilər. Çünki bir halda ki, Azərbaycanın nəqliyyat sektoru yüksək templərlə inkişaf edir və beynəlxalq təşkilatlar bunu yüksək qiymətləndirir, nəqliyyat sektorunda bütün komponentlər yüksək standartlara cavab verməlidir. Əlbəttə, hər bir ölkə istəyir ki, onun yükləri yerli şirkətlər tərəfindən daşınsın. Ona görə bu məsələ ilə bağlı sizə tapşırıram, təhlil aparın və məlumat verin.

Ötən ilin noyabr ayında Qazaxıstanda bu ölkə ilə Azərbaycan arasında yeni rabitə xəttinin çə- ... kil- məsinin təməlqoyma mərasimi keçirilmişdir. Bu da çox önəmli layihədir. Azərbaycan rabitə və yüksək texnologiyalar sahəsində böyük uğurlar əldə edib. Ənənəvi “Bakutel” sərgisi çox böyük diqqət cəlb edir. Bu il bu istiqamətdə hansı işlər görüləcəkdir, bu barədə məlumat verin.

**Ramin Quluzadə:** Möhtərəm cənab Prezident, Bakı ilə Qazaxıstanı birləşdirən fiberoptik kanal gələcəkdə Avropanı və Asiyanı birləşdirən bir xətt olacaq. Bu da imkan yaradacaq ki, biz gələcəkdə Avropadan Çinə və digər ölkələrə interneti Azərbaycanın üzərindən ... ötürək. Gələcəkdə Azərbaycan və digər ölkələrdə internetə olan tələbatın ödənilməsi və keyfiyyətli internetdən istifadə üçün bu işlər görüləcək. Eyni zamanda, qeyd etmək istəyirəm ki, artıq hər il “Bakutel” sərgisinə də maraq artır. Siz də oraya gələndə görürsünüz ki, həm yerli şirkətlərimizin, həm də startapların bu sahəyə marağı artır. Gələcəkdə də bu cür tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Prezident İlham Əliyev: Buna da çox diqqət yetirmək lazımdır. “Bakutel” artıq 20 ildən çoxdur keçirilir və regionda əsas sərgi və konfransdır. Bu sərgi və konfrans- ... d a adətən Beynəlxalq Telekommunikasiya İttifaqının rəhbəri də iştirak edir. Bu təşkilatın rəhbərləri mənimlə görüş əsnasında daim Azərbaycanda bu sahədə görülən işlərə yüksək qiymət verirlər. Bir halda ki, Azərbaycan artıq Avrasiyanın önəmli nəqliyyat mərkəzlərinin birinə çevrilib, ölkəmiz mütləq rabitə, internet və fiberoptik rabitə xətlərinin çəkilməsi istiqamətində də mərkəzə çevrilməlidir. Ona görə ötən ilin noyabrında Qazaxıstanda keçirilmiş təməlqoyma mərasimi xüsusi əhəmiyyət daşıyır. Əminəm ki, bu xəttin çəkilişi tezliklə təmin ediləcəkdir. Bunun uzunluğu 400 kilometrdir. Eyni zamanda, Azərbaycanda internet istifadəçilərinin sayı getdikcə artır və artıq 80 faizə çatıbdır. Keyfiyyətli interneti təmin etmək üçün əlavə vəsait də nəzərdə tutulmalıdır.

Beləliklə, bu il bu sahədə görüləsi işlər çoxdur. Ancaq sevindirici hal ondan ibarətdir ki, artıq gözəl nəticələr əldə edilib və biz bundan sonra yalnız inkişaf yolu ilə gedəcəyik. Azərbaycan həm nəqliyyat, həm rabitə, həm də yüksək texnologiyalar sahəsində bundan sonra da regionda liderlik mövqelərini qorumalıdır və biz öz potensialımızı artırmalıyıq.

“Bütövlükdə Azərbaycanın nəqliyyat infrastrukturu Davosun hesabatında dünya miqyasında 31-ci yerdədir. Bu, kifayət qədər böyük göstəricidir. Bu göstəriciyə görə biz bir neçə inkişaf etmiş ölkəni də qabaqlamışıq”

## Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən “AMOR təqaüdü” müsabiqəsinin qalibləri məlum olub

***Rusiya Azərbaycanlı Gənclər Birliyinin (RAGB) sədri Leyla Əliyevanın təşəbbüsü ilə keçirilən “AMOR təqaüdü” müsabiqəsinin qalibləri məlum olub.***

RAGB-nin İdarə Heyətindən AZƏRTAC-a bildiriblər ki, bu il ilk dəfə olaraq Rusiya Azərbaycanlı Gənclər Birliyi Rusiya Federasiyasında ali təhsil alan əlaçı tələbələrin məbləğindən asılı olmayaraq təhsil haqlarının ödənilməsi üçün nadir fürsət təqdim edib.




RAGB-nin saytında və sosial şəbəkələrdəki rəsmi səhifələrində elan edilmiş müsabiqədə qeydiyyatdan keçmiş və təqdim olunmuş müraciətlər müsabiqənin tələblərinə uyğun olaraq yoxlanılıb və qaliblər müəyyən edilib. Müsabiqədə Rusiya Federasiyasının ali məktəblərinin bakalavr və ya magistr bölmələrində əyani təhsil alan əlaçı azərbaycanlı tələbələr iştirak ediblər.

Xatırladaq ki, RAGB Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə 2009-cu ildə Rusiyada azərbaycanlı gənclərin vahid təşkilatda birləşməsi, onların sosial sahədə, yaradıcılıq və təhsil istiqamətlərində təşəbbüslərinin dəstəklənməsi məqsədilə yaradılıb. “AMOR təqaüdü” layihəsi təhsildə fərqlənən tələbələrə hərtərəfli dəstək göstərmək və gənclərin təhsilə olan marağını artırmaq məqsədilə həyata keçirilir.

Qeyd edək ki, RAGB təqaüd layihəsini bu ildən etibarən hər il keçirəcək. Bununla əlaqədar təşkilat gəncləri AMOR-un “amor.az” rəsmi saytını və sosial şəbəkələrdə fəaliyyətini izləməyə və gələcək müsabiqələr haqqında məlumatlı olmağa dəvət edir.

## Heydər Əliyev Fondu bullyoz epidermoliz xəstəliyi olan uşaqları dərman preparatları ilə təmin edib

***Heydər Əliyev Fondu anadangəlmə bullyoz epidermoliz diaqnozu ilə dövlət qeydiyyatında olan 18 yaşınadək şəxsləri dərman preparatları ilə təmin edib. AZƏRTAC xəbər verir ki, Fondun əməkdaşları Bakı, Ağsu, Ağdam, Astara, Biləsuvar, Xızı, İmişli, Qazax, Masallı, Sabirabad və Şamaxıda olaraq bir il ərzində istifadə edilməsi nəzərdə tutulan 42 adda dərman preparatını, eyni zamanda həkimin fərdi qaydada yazdığı resept və tövsiyə məktubunu müvafiq ailələrə çatdırıb.***








Xatırladaq ki, səhiyyə və sosial sahələrdə fəaliyyət Heydər Əliyev Fondunun prioritet istiqamətlərindəndir. Əhalinin səhiyyə problemlərinin aradan qaldırılmasında yaxından iştirak edən Fond eyni zamanda “Diabetli uşaqlara ən yüksək qayğı”, “Talassemiyasız həyat naminə”, ürək qüsurlu uşaqların əməliyyatına dəstək, “Koxlear implantasiya” kimi layihələr həyata keçirir.

### İtaliya saytı: Azərbaycan 2020-ci ildə yenidən kəşf ediləsi ölkədir


TERMOMETRO QUOTIDIANO
HOME SONDAGGI ELEZIONI POLITICA ECONOMIA LAVORO QUOTIDIANO
Azerbaigian, una terra da riscoprire in questo 2020
Pubblicato il 12 Gennaio 2020 alle 16:15 Autore: Enrico Ianuario
TERMOMETRO QUOTIDIANO
*Secondo la Lonely Planet, è l'Azerbaigian uno dei Paesi da visitare nel 2020. Tra brutalismo sovietico e grattacieli, ecco cosa offre questa terra.*
Condividi su Facebook Twitter

İtaliyanın “Termometro Quoditiano” (Gündəlik termometr) saytı Azərbaycanı 2020-ci ildə yenidən kəşf ediləsi ölkə adlandırıb. AZƏRTAC xəbər verir ki, “Lonely planet” turizm jurnalının məqaləsində ölkəmiz 2020-ci ildə mütləq görülməsi lazım olan ölkələr siyahısına daxil edilib. Bunun əsasında yazı dərc edən italyan portalı ölkəmizin bu il bir daha kəşfini məsləhət görüb.

“Azərbaycan-zərdüştlüyün yaşayan mədəni mərkəzi, müasir və qədim arxitekturanın vəhdəti, xarakterik Xəzər dənizi, keçmiş və gələcəyi özündə birləşdirən ölkə - yeni axtarışlar edən və suallara cavab axtaran hər kəsə maraqlı olacaq”,- deyə yazıda bildirilir.



# Prezident İlham Əliyev Paşinyanın utopik xəyallarını darmadağın etdi!

## *Azərbaycan Prezidenti: "Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır"*

***Saxtakarlıq və yalan danışmaq ermənilərin qanındadır. Əslində, bu, çoxları üçün yenilik olmasa da, erməni baş nazir Nikol Paşinyan üçün hələ anlaşılmazdır. Küçə "demokratı"nın yalanlar üzərində qurduğu utopik xəyalarını erməni xalqının başına yeridərək, Ermənistanı "inkişaf etmiş ölkələr sırasına çıxaracığı" vədləri elə vədlər olaraq qaldı. Verilən vədlərə və yalanlara diqqət yetirək: Paşinyan deyir ki, "2019-cu ilin sonuna qədər Ermənistan iqtisadi artım baxımından, ilk onluğa daxil olmasa da, ilk 15 ölkə arasında yer alacaq". Bu sözləri Nikol erməni sahibkarlar üçün yeni il qəbulu zamanı bəyan edib. Söylədiyi yalandan cuşa gələn baş nazir Ermənistanın başa çatmaqda olan ildəki göstəricilərinin, nəinki Cənubi Qafqazda, hətta dünya ölkələri arasında da "rekord" qırdığını bildirib.***

"Novosti Armeniya" saytı Paşinyanın fikirlərindən sitat gətirib: "Ermənistan tərəfindən həyata keçirilən "bu uğur", nəinki Avrasiya İqtisadi Birliyi, hətta MDB ölkələri arasında ilk göstəricidir. Mən yüksək ehtimalla, iqtisadi artım baxımından, Ermənistanın Avropada liderlər sırasında olacağına da şübhə etmirəm". "Ermənistanın Aqrar-Kəndli Birliyi" adlı QHT-nin sədri Qraç Berberyan isə bildirib ki, Paşinyanın hakimiyyəti dövründə buğda bitkilərində 30 faiz azalma qeydə alınıb və son bir ildə kartof istehsalı da aşağı düşüb. Onun sözlərinə görə, Ermənistan bu sahə üzrə artıq idxalçıya çevrilib. Burada daha maraqlı nüanslardan biri də ölkədəki kadrlarla bağlıdır. Belə ki, Berberyan ölkədəki bütün uğursuzluqları Paşinyanın təyin etdiyi səriştəsiz kadrların yarıtmaz fəaliyyətində axtarmağı məsləhət görüb.

Ancaq Ermənistandakı real durumla və Paşinyanın yalanları ilə bağlı kartları Azərbaycan Prezidenti İlham Əliyev 2019-cu ilin yekunlarına həsr olunan müşavirədəki çıxışı ilə faktlarla açıqlayıb.

### Azərbaycan Prezidenti Paşinyanın bütün kartlarını açdı

Prezident İlham Əliyev bildirib ki, son vaxtlar Ermənistanın baş naziri öz ölkəsinin dırnaqarası uğurları haqqında danışarkən ölkəsini Azərbaycanla müqayisə etməsi Paşinyansayağı utopiyadır: "Bəri başdan bildirirəm və bunu heç sübut etməyə ehtiyac yoxdur ki, belə bir fərziyyənin heç bir əsası yoxdur. Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bunu təsdiqləmək üçün, sadəcə olaraq, bir neçə hadisəni və bir neçə rəqəmi səsləndirmək istərdim. Bildiyiniz kimi, Azərbaycan 2011-ci ildə 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilmişdir. Yəni bu, özlüyündə böyük bir göstəricidir. Birinci növbədə, ona görə ki, biz ilk dəfə bu böyük, şərəfli missiyaya nail olduq və o vaxt müstəqilliyimizin cəmi 20 yaşı tamam olmuşdu. Digər tərəfdən, bu, Azərbaycanın beynəlxalq nüfuzuna, bilavasitə dəlalət edən amillərdən biri idi. Çünki dünya birliyinin mütləq əksəriyyəti bizə inandı, bizə etimad göstərdi və bizə öz səsini vermişdi. ...BMT Təhlükəsizlik Şurasına seçilməyimiz bizim böyük siyasi və diplomatik qələbəmizdir və eyni zamanda, Ermənistan üzərində böyük qələbə idi".

Ölkə başçısı 2016-cı il aprel ayında Ermənistanın törətdiyi təxribatla bağlı faktlara da toxunaraq bildirib ki, dəfələrlə xunta bu cür hərəkətlərə yol verib: "2016-cı il aprel hadisəsəi ilə bağlı də Ermənistan dinc Azərbaycan əhalisinə qarşı hərbi təxribat törədib və bu təxribat nəticəsində, bir neçə dinc vətəndaş həlak olub. Onların arasında uşaqlar da olub. Azərbaycan buna cavab olaraq uğurlu əks-hücum əməliyyatı keçirərək Ağdərə, Füzuli və Cəbrayıl rayonlarının bir hissəsini, minlərlə hektar torpağı işğalçılardan azad etdi və o torpaqlarda Azərbaycan bayrağı ucaldıldı. Bu, bizim hərbi qələbəmiz idi. Növbəti hərbi qələbə 2018-ci ildə təmin edilmişdir. Uğurlu Naxçıvan əməliyyatı nəticəsində, 10 mindən çox hektar ərazi işğalçılardan, erməni silahlı qüvvələrindən təmizləndi və bir neçə önəmli strateji yüksəklik azad edildi. Bu yüksəkliklər imkan verir ki, biz Ermənistanın strateji kommunikasiyalarına tam nəzarət edə bilək. Bu, bizim ikinci hərbi qələbəmiz idi".

### "Azərbaycan - dünyanın ən güclü orduları reytinqində"

Dövlət başçısı İlham Əliyev dünyanın ən güclü orduları reytinqində Azərbaycanın 50-ci, Ermənistan isə 96-cı yerdə olduğunu bildirib: "O cümlədən, hava gücü üzrə Azərbaycan 63-cü, Ermənistan 86-cı yerdədir. Dəniz gücü üzrə Azərbaycan 67-ci yerdədir, Ermənistanda dəniz yoxdur. Tank gücü üzrə Azərbaycan 32-ci, Ermənistan 78-ci yerdədir. Mənbə "Global Firepower 2019" hesabatıdır".

Ölkə başçısı, həmçinin, iqtisadi sahədə də, Azərbaycanın uğurul göstəricilərlə irəlidə olduğunu deyib: "2019-cu ildə Azərbaycanın ümumi daxili məhsulu dollar ekvivalentində 47,6 milyard dollardır, Ermənistanda isə cəmi 13 milyard dollar dairəsindədir. Alıcılıq qabiliyyətinə görə, Azərbaycan 187 milyard dollar daxili məhsula sahibdir, Ermənistan 33 milyard, fərq 5,6 dəfədir. Adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 4800 dollar, Ermənistanda 4500 dollardır. Alıcılıq qabiliyyətinə görə adambaşına düşən ümumi daxili məhsul Azərbaycanda 18 min 600 dollar, Ermənistanda 11 min dollardır".

Dövlət başçısı çıxışı zamanı Azərbaycanın idman sahəsində də Ermənistandan qat-qat irəlidə olduğunu bildirib: "Azərbaycan 2019-cu ildə dünya və Avropa çempionatlarında 775 medal qazanıb, onlardan 271-i qızıl medaldır. Ermənistan cəmi 222 medal qazanıb, onlardan 61-i qızıldır. 2019-cu ildə II Avropa Oyunlarında Azərbaycan 28 medal qazanıb, Ermənistan 11 medal. 2019-cu ildə keçirilmiş güləş üzrə Avropa çempionatında Azərbaycan 13 medal qazanıb, o cümlədən, 4 qızıl, Ermənistan 3 medal qazanıb, bir qızıl".

### "Ermənistan isə faşistləri qəhrəmanlaşdırır"

Dövlət başçısı müşavirədə çıxışı zamanı Paşinyanın faşistləri "qəhrəmanlaşdırmaqla", faşist siyasəti yürütdüyünü bildirib: "Digər önəmli bir məsələ ondan ibarətdir ki, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə aparır, Ermənistan isə faşistləri qəhrəmanlaşdırır. Faşist cəlladı olan Njdeyə İrəvanın mərkəzində 6 metrlik abidə ucaldılıb. Bu qanlı cinayətkar SMERŞ tərəfindən həbs edilib, 25 il məhkum edilib, həbsxanada ölüb və reabilitasiya olunmayıb. Belə bir adamın şərəfinə İrəvanda abidə qoyulur və Ermənistanın baş naziri bu cəlladı Soljenitsın və Molotovla eyniləşdirir. Njdenin məşhur kəlamı var: Almaniya uğrunda ölən, Ermənistan uğrunda ölür və o, bunu İkinci Dünya müharibəsi zamanı demişdi. Bu, artıq onun mənfur xislətini əks etdirən ifadədir. Ona görə bu sahədə də Azərbaycan həqiqətin tərəfindədir, Ermənistan isə şər qüvvələrin tərəfindədir".

Prezident İlham Əliyev Azərbaycanın dünya əhəmiyyətli nəhəng layihələr icraçısı olduğunu, Ermənistanın isə bu sahədə dalanda qaldığını deyib: "Ermənistan əsrlər boyu qonşulara xor gözlə baxır, qonşulardan nəsə qoparmaq istəyir, onların torpağına iddia edir, tarixi saxtalaşdırır, tarixi abidələri saxtalaşdırır və özününküləşdirməyə cəhd edir. Fərq bundan ibarətdir".

"Ermənistan bu gün bizim səylərimiz nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanıdır" deyən dövlət başçısı bildirib ki, torpaqlarımızdan çıxmayana qədər bu vəziyyət belə də qalacaq: "Beləliklə, Ermənistan rəhbərliyi növbəti dəfə saxta məlumat əsasında Ermənistanı Azərbaycanla müqayisə etmək istəsə, yaxşı fikirləşsin. Çünki idman dili ilə desək, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə, bu fərq daha da böyüyəcək".

### Nəticə... erməninin dili ilə...

Saxtakarlıq, yalan və işğaçılıq. Bu insanlığa aid olmayan faşist xüsusiyyətlərə layiq olduqlarını erməni xalqı özü də bilir və bilmədən də özəlri təsdiqləyir. Necə ki, erməni deputat Mqer Sedrakyanın 2014-cü ildə səsləndirdiyi fikirləri sosial şəbəkələrdə erməni istifadəçilər bölüşməyə başlayıb və bu hal belə də davam edəcək. Belə ki, "Azadlıq" radiosunun erməni bölümünə videomüsahibə verən erməni deputat İrəvanın Kremldən nə dərəcə asılı vəziyyətdə olduğunu dilə gətirərkən deyib ki, ruslar olmasaydı, biz çoxdan tarix səhifəsindən silinmişdik: "Ruslar olmasaydı, bizi çoxdan yoxa çıxarardılar. Məgər rusların əli altında olmaq bizim üçün pisdir? Yadınıza 1991-ci ili gətirin. Məgər Qarabağda biz qələbə qazandıq? Əgər Moskvanın dəstəyi olmasaydı, biz bu günə qədər Qarabağı əlimizdə saxlaya bilərdik? Ümumiyyətlə, sizcə, bizim ordu ruslarsız Qarabağa girə bilərdi? Əlbəttə ki, bunların hamısı Rusiyanın köməyi ilə başa gəlib".

Beləliklə, bütün bunlar ondan xəbər verir ki, Paşinyan bu qədər uğursuzluqdan sonra yaxşı olar ki, bu saxta yalanlarından əl çəksin. Çünki nə qədər ki, Paşinyan danışıqların dalana dirənməsinə çalışarsa, o zaman Azərbaycan yenidən hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, Ermənistan növbəti dəfə Silahlı Qüvvələrimizin sərt zərbəsinə tuş gələcək. Digər tərəfdən düşmən onu da unutmur ki, döyüş hazırlığına görə Silahlı Qüvvələrimiz dünyanın 50 ən aparıcı ordusu sırasında qərarlaşıb. Ordumuzun döyüş hazırlığı səviyyəsinin daha da yüksəldilməsi, şəxsi heyətin müasir silah və texnika ilə təmini istiqamətində də indinin özündə zəruri addımlar atılır və ordumuz istənilən an işğal altında olan torpaqlarımızı azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir.

**A.SƏMƏDOVA**

# Azərbaycanlı tenor erməni sopranonu səhnədən qovdurdu

## Yusif Eyvazov Ruzan Mantaşyanla çıxış etmək istəmədiyini bildirib və tələb irəli sürüb

***Ermənilər bu dəfə beynəlxalq səviyyədə çətin duruma düşüblər. Belə ki, gələn ay baş tutacaq Drezden Opera Balında rüsvay olan ermənilər baş verən bir hadisədən sonra ciddi təlaş keçirib və narahat olmağa başlayıblar. Buna səbəb isə, azərbaycanlı opera müğənnisinin erməni müğənni ilə eyni səhnədə çıxış etməkdən imtina etməsidir.***

"Müğənnilər, nəinki Avropanın, eləcə də, digər ölkələrin siyasət, artist və biznes-elitasının toplaşdığı məşhur Drezden Opera Balının açılışında iştirak etməli idilər. Nəticədə, erməni müğənnidən opera balı səhnəsini tərk etmək xahiş olunub". Bu barədə "Sputnik-Armeniya" saytı dünyaca məşhur opera müğənnisi Anna Netrebkonun azərbaycanlı əri Yusif Eyvazovun erməni sopranosu Ruzan Mantaşyanla eyni səhnədə çıxış etməkdən imtinası ilə bağlı olayı ictimailəşdirərkən yazıb. Erməni saytı informasiyanı "Forumopera.com" saytından götürüb.

### Byüri: "Tenor qalib gəldi və sopranodan getməyi xahiş etdilər"

"İnandırıcı görünməsə də, bu, faktdır! Eyvazov siyasi səbəblərə görə, Ruzan Mataşyanla eyni səhnəni bölüşməyi rədd edib" deyə olayı "Forumopera" saytında yazan Loran Byüri qeyd edib. "Artistlər fevralın 7-də Drezden Opera Balı çərçivəsində bir yerdə çıxış etməli idilər. Lakin nə baş verdi, nəticədə, iki müğənnidən hansından xahiş olunub?" deyə Byüri sual edib: "Tenor qalib gəldi və sopranodan getməyi xahiş etdilər".

Məhz bundan sonra ermənilər dərhal həmin hadisəni şişirdərək, azərbaycanlı opera tenoruna qarşı kampaniyaya başlayıblar, onun tələbini siyasiləşdirməyə cəhdlər göstəriblər. Halbuki Yusif Eyvazov xalqına və millətinə qarşı işğalçılıq mövqeyi sərgiləyən bir ölkənin müğənnisi ilə eyni səhnəni, haqlı olaraq, bölüşmək istəmədiyini bildirib və haqlı olduğunu sübuta yetirib.

Nəticədə, 


hay-küy salan daha bir erməni müğənnisi Asmik Papyan özünün "feysbuk" səhifəsində yazıb: "Haraya qədər yuvarlanmışıq. Mən dəfələrlə həmin səhnədə çıxış etmişəm, heç vaxt bənzər halın şahidi olmamışam".

Hətta Papyan insidentlə bağlı şikayət edəcəyini də bildirib.

### Ermənistanın işğalçılıq siyasəti onları beynəlxalq miqyaslı tədbirlərdə xar edir!

Görünən isə budur ki, ermənilər tanınmış azərbaycanlı opera tenor müğənnisi Yusif Eyvazovun beynəlxalq müstəvidəki bu addımından təlaş keçirməyə başlayıblar və onun Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində təcavüzkar ölkələrinin işğalçılıq siyasətlərinin mədəniyyətə də zərbə vurması faktlarını, habelə, işğal edilmiş ərazilərimizdə tarixi-mədəni abidələrimizin dağıdılması və məhv edilməsi faktlarının növbəti dəfə də ortaya çıxacağından ehtiyat ediblər. Ona görə də, bu cür haray çılıq salıb, həqiqətləri gizlətməyə cəhdlər göstərirlər.

Qeyd edək ki, Drezden Opera Balı ilk dəfə 1925-ci ildə baş tutub və İkinci Dünya müharibəsi başlanana - 1939-cu ilə qədər səkkiz dəfə keçirilib. 2006-cı ildə isə bal Drezdenin əsasının qoyulmasının 800-cü ildönümündə yenidən bərpa olunub və hazırkı vaxta qədər hər il keçirilir. Böyük qış mərasiminin iştirakçıları Saksoniya paytaxtının10 minlərlə sakinləri və qonaqları olur.

**Rövşən RƏSULOV**

# "Vətəndaş dialoqu" missiyasının nümayəndələri Azərbaycanda parlament seçkilərini müşahidə edəcəklər



Dünyanın müxtəlif ölkələrinin təmsil olunduğu "Vətəndaş dialoqu" missiyasının nümayəndələri Azərbaycanda parlament seçkilərini müşahidə edəcəklər.

Bu barədə secki-2020.az saytına açıqlamasında rusiyalı politoloq Sergey Markov bildirib. O deyib ki, özünün də təmsil olunduğu "Vətəndaş dialoqu" missiyası dünyanın müxtəlif ölkələrində keçirilən seçkilərdə müşahidəçi qismində iştirak edir. Bu missiyanın tərkibində Almaniya, Fransa, İtaliya, Avstriya, Polşa kimi ölkələrin nümayəndələri təmsil olunur.

Eyni zamanda, rusiyalı müşahidəçilərdən ibarət nümayəndə heyətinin də Azərbaycana səfərinin nəzərdə tutulduğunu qeyd edən S.Markov deyib ki, bu nümayəndə heyəti Dövlət Dumasının deputatları, Federasiya Şurasının, İctimai Palatanın üzvləri və nüfuzlu ekspertlərdən ibarətdir. "Azərbaycan parlamentinin tərkibində ciddi dəyişikliyin olacağına, daha fəal insanların seçiləcəyinə inanıram. Ümid edirəm ki, birlikdə işlədiyimiz, o cümlədən AŞPA-dakı dostlarımızı yeni çağırış məclisdə görə biləcəyik", - deyə rusiyalı politoloq bildirib.

# Mərkəzi Seçki Komissiyasının iclası keçirilib



Yanvarın 15-də Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının (MSK) növbəti iclası keçirilib. MSK Katibliyinin Media və ictimai əlaqələr şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, əvvəlcə Komissiyanın yanvarın 7-də və 8-də keçirilmiş iclaslarının protokolları təsdiq olunub.

Sonra 2020-ci il fevralın 9-na təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə səlahiyyətli nümayəndələrinin qeydə alınması ilə bağlı Azərbaycan Ümid Partiyasının müraciətinə baxılıb və sözügedən siyasi partiya tərəfindən təqdim olunan şəxslər səlahiyyətli nümayəndələr kimi qeydə alınıb.

İclasda qarşıdan gələn 9 fevral Milli Məclisə seçkilərlə əlaqədar MSK-ya daxil olmuş müraciətlərə də baxılıb. Maraqlı subyektlərin iştirakı ilə müraciətlər geniş müzakirə olunduqdan sonra qərarlar qəbul edilib. Komissiya namizədin qeydə alınmaması ilə bağlı müvafiq dairə seçki komissiyasının qərarının ləğv edilərək, namizədliyi öz təşəbbüsü ilə irəli sürülən bir nəfərin Milli Məclisə seçkilərdə namizədliyinin qeydə alınmasına qərar verib.

Komissiyanın iclasında, həmçinin bəzi seçki dairələri dairə seçki komissiyalarının tərkibində dəyişikliklər olunub.

Beynəlxalq müşahidə missiyaları və kütləvi informasiya vasitələrinin nümayəndələrinin iştirak etdikləri iclasda Milli Məclisə seçkilərə hazırlıq istiqamətində müxtəlif məsələlərə dair statistik göstəricilər diqqətə çatdırılıb, eləcə də nəzərdə tutulan genişmiqyaslı maarifləndirmə proqramı barədə ətraflı məlumat verilib.

# ABŞ konqresmeni 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı bəyanat yayıb


E22 CONGRESSIONAL RECORD — Extensions of Remarks January 9, 2020

CONGRATULATING DAISY PAEZ ON HER RETIREMENT

HON. NYDIA M. VELÁZQUEZ

HONORING THE LIFE OF CHESTER B. PIATKOWSKI

HON. JOHN KATKO

RECOGNIZING THE 30TH ANNIVERSARY OF BLACK JANUARY

HON. PAUL A. GOSAR

ABŞ Konqresinin Nümayəndələr Palatasının Respublikaçı üzvü Pol Qosar 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı bəyanatla çıxış edib.

Ölkəmizin ABŞ-dakı səfirliyindən AZƏRTAC-a bildiriblər ki, bəyanatda Azərbaycanda "Qara Yanvar" kimi yadda qalan faciənin 1990-cı ilin yanvar ayında baş verdiyi, ozamankı SSRİ rəhbərliyinin ölkəmizdə azadlığı boğmağa və Azərbaycan xalqına öz siyasi iradəsini yeritməyə cəhd göstərdiyi diqqətə çatdırılır. O vaxt Azərbaycan xalqının sovet əsarətindən təngə gəldiyi və onunla mübarizə əzmini nümayiş etdirdiyi bildirilir.

Qeyd olunur ki, Azərbaycan xalqının sülhpərəst azadlıq çağırışlarına sovet rəhbərliyi silah və tanklarla cavab verdi. Bunun nəticəsində 147 nəfər mülki şəxs qətlə yetirildi, yüzlərlə insan yaralandı və həbs olundu. Sovet İttifaqında əvvəlki müstəqillik hərəkatlarına qarşı qəddarlıqlara rəğmən, azərbaycanlıların əzmkarlıq və qətiyyət nümayiş etdirdiyi, faciənin onlara qüvvə verdiyi və bu mübarizənin 1991-ci il avqustunda müstəqilliyə gətirib çıxardığı diqqətə çatdırılır. Bildirilir ki, müstəqilliyin elan edilməsindən sonra Azərbaycan regionda azadlıq mayakı rolunu oynadı, ABŞ-la dost və müttəfiq oldu. Bəyanatda, həmçinin faciə zamanı həlak olanların xatirəsi yad edilir və Azərbaycan Respublikasının davamlı inkişafı qeyd olunur. Konqresin digər üzvləri də Qara Yanvarı yad etməyə çağırılır, Azərbaycanın müttəfiq rolu və azadlıq yolunda səyləri bir daha vurğulanır. Bəyanatın mətni ilə bu linkdən tanış olmaq mümkündür: https://www.congress.gov/116/crec/2020/01/09/CREC-2020-01-09-pt1-PgE22-5.pdf.

### Ukrayna MSK-nın üzvləri Azərbaycanda parlament seçkilərini müşahidə edəcəklər




Ukrayna Mərkəzi Seçki Komissiyasının üzvləri fevralın 9-da keçiriləcək parlament seçkilərini müşahidə etmək üçün Azərbaycana səfər edəcəklər. Bu barədə AZƏRTAC-a məxsusi açıqlamasında Ukrayna MSK-nın mətbuat xidmətindən məlumat verilib. Ukrayna MSK-nın iki üzvü fevralın 7-10-da Azərbaycanda olacaq, seçkiöncəsi vəziyyəti və səsvermə prosesini müşahidə edəcək. Səfər çərçivəsində Azərbaycan Mərkəzi Seçki Komissiyasında da görüş keçirəcək ukraynalı qonaqlar seçkinin yekunlarına dair rəylərini açıqlayacaqlar.

# Prezident İlham Əliyev: “Biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişik”



## Paytaxtımız inkişafının yeni dövrünü yaşayır

***Bu, bir reallıqdır ki, dünyanın iri şəhərləri məxsus olduqları dövlətlərin, bütövlükdə siyasi-iqtisadi, tarixi-mədəni inkişaf səviyyəsini, eləcə də, şəhərsalma mədəniyyətini özündə əks etdirir.***

Azərbaycanın paytaxtı Bakı şəhəri də belə məkanlar sırasındadır. Yüz illər ərzində formalaşan qədim Şərq və müasir Qərb memarlığının sintezinə əsaslanan özünəməxsus şəhərsalma ənənələrinə malik paytaxtımız Azərbaycan Prezidenti İlham Əliyevin tapşırıq və göstərişlərinə uyğun olaraq daha da gözəlləşib və müasir məkana çevrilib. Bakıda həyata keçirilən abadlıq-quruculuq işlərinin həcmi daha da artıb. Hər zaman tarixi və bir-birindən maraqlı, diqqətçəkən tikililəri ilə göz oxşayan Bakının adı bu gün yeni-yeni möhtəşəm və bənzərsiz abidələri ilə dünyanın ən gözəl və müasir şəhərləri sırasında yer alıb.

Paytaxtımızın görkəmi dəyişir, sakinlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, mövcud şəhərsalma normalarına cavab verməyən, şəhərin ümumi görünüşünə xələl gətirən yaşayış binalarının, sosial və digər qeyri-yaşayış obyektlərinin sökülərək yenidən qurulması, yeni yaşayış binalarının inşa edilməsi, əlavə iş yerlərinin açılması istiqamətində ardıcıl işlər görülüb.

Bu uğurlu inkişaf şəhərimizin ötən illərlə müqayisədə özünü büruzə verir. Artıq bir-birinə oxşar Sovet binalarının bir qismi sökülərək yerində müasir yaşayış evləri tikilib. Əlbəttə ki, qədimliyinə, ərazisinin böyüklüyünə və əhalisinin sayına görə Şərqin qocaman və ən böyük şəhərlərindən biri hesab olunan Bakının rəmzinə çevrilən və ona yeni sima və rəng verən müasir tikililər, məhz iqtisadi göstəricilərin məntiqidir. Bakının ümumi görünüşünü daha da müasirləşdirən ən hündür bina olan “Alov Qüllələri” kompleksi, Azərbaycan muğamının dünyada geniş təbliği məqsədi ilə yaradılan, Avropa standartları ilə inşa edilən Beynəlxalq Muğam Mərkəzi, Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsi və azərbaycançılıq məfkurəsinin dərindən öyrənilməsi, geniş təbliği və s. istiqamətində sistemli fəaliyyət göstərən Heydər Əliyev Mərkəzi, eləcə də, Xalça Muzeyi, Bakı Su İdmanı Mərkəzi və digər tikililər Bakının simasına müasirlik gətirib.

Bakıdakı Dənizkənarı Milli Park Bakı şəhərinin ən maraqlı və spesifik təbii şəraitə malik yerlərindəndir. Burada “Baku Kristal Hall”ın inşası bu ərazinin görkəminə yeni rəng əlavə edib. 25 min nəfərlik tamaşaçı yeri olan kompleks orijinal arxitekturası ilə fərqlənir və paytaxtın memarlıq quruluşuna xüsusi yaraşıq verir. Bu bənzərsiz, möhtəşəm görkəm Bakının dünyanın ən görməli 52 şəhərindən biri kimi seçilməsinə səbəb olub.

Bakı Bulvarında bərpa edilən “Qu quşları” Fəvvarə Kompleksi də paytaxtımızın əzəmətinə və görkəminə xüsusi bir rəng verir. Dünyaşöhrətli, Azərbaycanın dahi şairi Nizami Gəncəvi və görkəmli bəstəkar Qara Qarayevin “Yeddi gözəl” poeması və baletindən ruhlanaraq yaradılan və 7 qu quşu heykəlindən ibarət fəvvarə paytaxtın gözəl məkanlarından biridir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycanın Birinci Xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə bu tarixi ansambl yenidən bərpa edildi. Bu məkan müasirləşən paytaxt Bakının görkəminə daha bir gözəllik və möhtəşəmlik gətirdi. İndi şəhərimizin sakinləri və buraya üz tutan minlərlə əcnəbi bu gözəlliyi seyr edərək, qədim və müasir Bakının gözəlliklərinə və hüsnünə heyran qalırlar.

### “BİZ BÜTÜN TƏMİR İŞLƏRİNİ ÇOX BÖYÜK USTALIQLA, BİNALARIN TARİXİ GÖRÜNÜŞÜNƏ XƏLƏL GƏTİRMƏDƏN APARMIŞIQ”

Həqiqətən də, paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır və şəhərimizin gözəlliyinə yeni gözəlliklər qatılır. Müasir dizaynlı böyük beynəlxalq aeroport terminalı inşa edilib, şəhərdə çoxlu dörd və beşulduzlu hotellər fəaliyyət göstərir. Vurğulamaq yerinə düşər ki, son illərdə Bakıda brend şəbəkələrə aid bir neçə beşulduzlu hotelin açılması paytaxtımızın simasına daha bir rəngarənglik əlavə edib. Bu gün “Four Seasons”, “Fairmont”, “Mariott”, “Hilton”, “Kempinski”, “Jumeirah”, “Sheraton”, “Hyatt” - dünyanın səkkiz aparıcı hotel brendi Bakıdadır. Belə brendlərə yalnız dünyanın ən inkişaf etmiş şəhərlərində təsadüf olunur. “Bakı şəhəri bizim milli sərvətimizdir” deyən Azərbaycan Prezidenti İlham Əliyev Bakının bu gün dünyanın ən gözəl şəhərlərindən biri olduğunu vurğulayıb: “Bunun iki səbəbi var. Birincisi, şəhərin quruluşu, şəhərdə mövcud olan gözəl tarixi memarlıq abidələri, o cümlədən, İçərişəhər, şəhərimizin Xəzər dənizinin kənarında yerləşməsi. Bu abidələr əsrlər boyu mövcud idi. Ancaq indi bəziləri unudur ki, onların əvvəlki görkəmi necə idi. Qapqara qaralmış, yarıdağılmış, baxımsız, rəngi solmuş binalar və illər boyu o binaların divarlarına hopmuş çöküntülər onların əsl simasını gizlədirdi. Biz bütün təmir işlərini çox böyük ustalıqla, binaların tarixi görünüşünə xələl gətirmədən aparmışıq. Bu, birinci amildir ki, biz Bakını dünyanın ən gözəl şəhərlərindən birinə çevirmişik və tarixi abidələrimizi bərpa etmişik. İkinci amil müasir binalardır. Bunlar da memarlıq abidələridir”.

### “BAKI ŞƏHƏRİNİN İNKİŞAFINA, HAVASININ TƏMİZLƏNMƏSİNƏ VƏ NƏTİCƏ ETİBARİLƏ, VƏTƏNDAŞLARIN RAHAT YAŞAMASINA NƏ QƏDƏR BÖYÜK DİQQƏT GÖSTƏRİLİR”

Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması davam edir. Yeni salınan parklar Bakının simasının daha da gözəlləşməsi baxımından, mühüm rol oynayır. Bakının Suraxanı rayonunun Qaraçuxur qəsəbəsində əsaslı şəkildə yenidən qurulan “Neftçilər” Parkı, Təzəpir məscidinin qarşısındakı yeni bağ, Füzuli küçəsi boyunca salınan Mərkəzi Park və s. insanların rahatlığının təminində əhəmiyyətlidir.

Mərkəzi Parkın inşası ilə Füzuli meydanının ətraf ərazilərində Bakının “ağciyəri” hesab olunan yeni yaşıllıq zolağı salınıb.

Prezident İlham Əliyevin birbaşa göstərişinə uyğun olaraq “Sovetski” adlanan ərazidə abadlıq və yenidənqurma işləri aparılıb. Ərazi orijinal layihə əsasında yüksək səviyyədə abadlaşdırılaraq, burada müasir tələblərə uyğun yeni istirahət parkı salınıb. Azərbaycan Prezidenti İlham Əliyev “Sovetski” adlandırılan ərazidə yaşayışın çox ağır olduğunu bildirib: “Yəni bir-birinin içində olan köhnə daxma tipli tikililər həm ekoloji vəziyyətə çox mənfi təsir göstərirdi, həm də orada yaşayan insanlar və nəqliyyat üçün böyük problem yaradırdı. Yolların eni 2-3 metr idi. Biz böyük işlər görərək, oradan da vətəndaşları kompensasiya əsasında köçürdük. Bəzilərinə yeni evlər verildi, bəzilərinə pul təminatı. İndi orada fəaliyyət göstərən Mərkəzi Park dünya miqyasında ən gözəl parklardan biridir. Bütün bunlar görülən işlərin bir hissəsini təşkil edir. Bütün işləri sadalamaq üçün günlərlə vaxt lazımdır. Görülən işlər, onu sübut edir ki, Bakı şəhərinin inkişafına, havasının təmizlənməsinə və nəticə etibarilə, vətəndaşların rahat yaşamasına nə qədər böyük diqqət göstərilir”.

Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi Parkın ən mühüm xüsusiyyəti Nəriman Nərimanov prospektindən Heydər Əliyev Sarayınadək olan ərazidə piyadalara yol keçmədən maneəsiz hərəkət imkanının yaradılmasıdır. Görülən işlər çərçivəsində parkın ərazisində, ümumilikdə, 9 fəvvarə tikilib.

Paytaxt Bakı inkişafının yeni dövrünü yaşayır və şəhərimizi gözəlliyinə yeni gözəlliklər qatılır. Paytaxt sakinlərinin və ölkəmizə gələn turistlərin istirahəti üçün ən müasir parkların və yeni-yeni yaşıllıq zolaqlarının salınması davam edir. Yeni salınan parklar Bakının simasının daha da gözəlləşməsi baxımından, mühüm rol oynayır. Prezident İlham Əliyevin bildirdiyi kimi, parklar şəhərimizin hər bir yerində salınır, o cümlədən, qəsəbələrdə: “Hesab edirəm ki, Bakı parkların sayına görə dünyada lider şəhərlərdən biridir”.

***Nəzakət***

## “Parlament seçkiləri Azərbaycanda demokratik təsisatların daha da möhkəmlənməsinə töhfə verəcək”



***Fevralın 9-da keçiriləcək parlament seçkiləri Azərbaycanda demokratik təsisatların daha da möhkəmlənməsinə töhfə verəcək. Bunu “Secki-2020” Müstəqil Media Mərkəzinə açıqlamasında amerikalı jurnalist, politoloq Piter Teys bildirib.***

Azərbaycanda seçki sisteminin çox yaxşı təşkil edildiyini qeyd edən Piter Teys deyib: “Ölkədə mövcud tolerant mühit, bütün xalqların və dinlərin nümayəndələri üçün yaradılan bərabər şərait hər zaman nümunə kimi qiymətləndirilib. Dövlətin bu cür tolerant cəmiyyət üçün formalaşdırdığı demokratik seçki mühiti, institusional hesabatlılıq və təkmil qanunvericilik bazası seçkilərin şəffaf və ədalətli şəraitdə keçməsinə zəmin yaradır. Təcrübə göstərir ki, keçirilən hər yeni seçki demokratik standartların möhkəmlənməsinə xidmət edir. Bundan əvvəlki seçkilər seçici fəallığı ilə yadda qalıb. Ümid edirəm ki, fevralın 9-da keçiriləcək seçkilərdə də xalq şəffaf, demokratik mühitin yaratdığı imkanlardan səmərəli istifadə edəcək və bu seçkilər Azərbaycanın istər bölgədə, istərsə də dünyada nüfuzunu daha da möhkəmləndirəcək”.

# YAP Binəqədi rayon təşkilatı "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda dərslərə start verib



YAP Binəqədi rayon təşkilatının inzibati binasında Bakı şəhəri üzrə Təhsil İdarəsinin və rayon təşkilatının birgə təşkilatçılığı ilə Binəqədi rayonunda fəaliyyət göstərən tam orta ümumtəhsil məktəblərinin şagirdlərinin iştirakı ilə "Heydər Əliyev irsinin öyrənilməsi" mövzusunda dərslərə start verilib.

Dərslərin təşkilində əsas məqsəd Ulu Öndər Heydər Əliyevin dövlətçilik siyasəti və azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Onun zəngin irsinin tədqiqi və təbliği, şagirdlərin müvafiq biliklərinin zənginləşdirilməsi, ölkəmizin dövlət quruculuğu prosesində Ümummilli Liderin rolunun və xidmətlərinin gənc nəslə çatdırılmasından ibarətdir.



Tədbirin giriş sözü ilə çıxış edən Binəqədi rayonu 283 nömrəli tam orta ümumtəhsil məktəbinin direktoru Tünzalə Zeynalova layihə haqqında ətraflı məlumat verib. Qeyd edib ki, Azərbaycan xalqı xoşbəxtdir ki, onun Heydər Əliyev kimi Ulu Öndəri, dünyanın hörmətlə yanaşdığı və qəbul etdiyi Ümummilli Lideri var.

Tədbirdə geniş məruzə ilə çıxış edən YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov bildirib ki, hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var: "Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynayıblar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi və müdrik dövlət xadimi kimi düşüb. Ümummilli Lider Heydər Əliyevin keçdiyi böyük, mənalı və şərəfli həyat yolu zaman və məkan anlayışına sığmır. Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı."

Qeyd edək ki, Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı müxtəlif mövzuları əhatə edəcək dərslərin tədrisi ilə əvvəlcədən müəyyənləşdirilmiş müəllimlər məşğul olacaq. Dərslər silsilə olaraq davam etdiriləcək.

**ZÜMRÜD BAYRAMOVA**

*Dünən Yeni Azərbaycan Partiyası Səbail rayon təşkilatının rayon şurasının və idarə heyətinin geniş tərkibdə iclası keçirilib. İclasda ötən il YAP Səbail rayon təşkilatı tərəfindən görülən işlər müzakirə olunub və 2020-ci il üçün iş planı təsdiqlənib. İclasda çıxış edən YAP Səbail rayon təşkilatının sədri Şəmsəddin Hacıyev gündəlikdə duran məsələlər haqqında məlumat verib.*

# YAP Səbail rayon təşkilatı rayon şurasının və idarə heyətinin iclası keçirilib





2019-cu ilin ölkəmiz üçün uğurlu olduğunu diqqətə çatdıran Ş.Hacıyev ötən ilin Azərbaycan xalqının tarixinə islahatlar ili kimi yazıldığını bildirib. O, Prezident İlham Əliyevin ilin yekunları ilə bağlı müşavirədə çıxışına toxunaraq deyib: "Azərbaycan müstəqil siyasət yürütməklə, dayanıqlı inkişaf yolunda inamla irəliləyir. Ötən il ölkəmiz üçün çox uğurlu olub. Sosial layihə çərçivəsində insanların rifah halı yaxşılaşıb. Eyni zamanda, dərin və köklü islahatlar həyata keçirilib".

Uğurların əldə olunmasında Yeni Azərbaycan Partiyasının mühüm rolunu xüsusi qeyd edən təşkilat sədri bildirib ki, ötən il Yeni Azərbaycan Partiyası, o cümlədən, YAP Səbail rayon təşkilatı üçün uğurlu il olub, rayon təşkilatının sıraları daha da genişlənib və partiyanın yeni üzvləri arasında gənclər, qadınlar üstünlük təşkil edir. Ş.Hacıyev 2019-cu ildə YAP Səbail rayon təşkilatının siyasi-ideoloji, mədəni-kütləvi, sosial və s. istiqamətlərdəki fəaliyyəti haqqında yığıncaq iştirakçılarına ümumi məlumat verdi. Qeyd olundu ki, rayon partiya təşkilatı tərəfindən, hər il ənənəvi olaraq, keçirilən siyasi, rəsmi təqvim günlərinə həsr olunan tədbirlərdən başqa, ötən il "Nəsimi İli" və Yeni Azərbaycan Partiyası ilə Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin "2019-2020-ci illər üzrə birgə Fəaliyyət Planı" çərçivəsində çoxsaylı mədəni, bədii-publisistik tədbirlər, görüşlər keçirilmiş, cəbhə bölgələrinə səfərlər təşkil olunmuş, gənclərlə iş istiqaməti daha da gücləndirilmiş, rayonun aztəminatlı sakinləri üçün xeyriyyə aksiyaları, iftar süfrələri təşkil olunmuş, rayon sakinlərinin problemlərinin öyrənilməsi və aradan qaldırılması məqsədilə Səbail rayon icra hakimiyyəti ilə birgə yerlərdə görüşlər keçirilmiş, kütləvi informasiya vasitələrində çoxsaylı çıxışlar edilmiş, məqalə və müsahibələr dərc olunmuşdur. Nəzərə çatdırıldı ki, YAP Səbail rayon təşkilatının illik geniş hesabatı fevral ayında rayon partiya təşkilatının yaranmasının növbəti ildönümü tədbirində təqdim olunacaqdır.

İclasda, həmçinin, fevralın 9-da keçiriləcək Milli Məclisə seçkilərlə əlaqədar Səbail rayonunda təbliğat-təşviqat kampaniyasının aparılması, seçicilərlə görüşlər, seçki qərargahının fəaliyyəti ilə bağlı qarşıda duran vəzifələr müzakirə olundu, 20 Yanvar faciəsinin ildönümünə hazırlıqlar barədə məlumat verilib.

Ş.Hacıyev YAP Səbail rayon təşkilatının 2020-ci il üçün hazırlanmış iş planı və Yeni Azərbaycan Partiyasının yaradıcısı Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 97-ci ildönümü ilə əlaqədar tədbirlər planı haqqında ətraflı məlumat verib. Daha sonra YAP Səbail rayon təşkilatının qadınlar şurasının, rayon təşkilatı gənclər təşkilatının, nəzarət-təftiş komissiyasının 2020-ci il üçün iş planları təsdiq edilib.

Sonda "Turizm işçiləri" (Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi) ərazi ilk partiya təşkilatının yeni üzvlərinə partiya üzvlük vəsiqələri təqdim olunub.

**RƏFİQƏ HÜSEYNOVA**

# Aparılan islahatlar nəticəsində əməkhaqqı fondunun bir ildə 42,3 faiz artması çox yüksək göstəricidir



Prezident İlham Əliyevin fərman və sərəncamları ilə 2019-cu ildə sosial sahədə çox dərin islahatlar həyata keçirilib və əhalinin 42 faizinin gündəlik gəlirləri və rifahının artırılması sahəsində çox əhəmiyyətli tədbirlər görülüb. Bu islahatların ən böyük qolu olan əmək münasibətləri sahəsində atılan addımlar nəticəsində 1 milyon 350 min insanın əməkhaqqı ciddi şəkildə artıb.

Yanvarın 13-də Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına həsr olunmuş müşavirədə ölkəmizdə əhalinin sosial vəziyyətinin yaxşılaşdırılması barədə görülən tədbirlər barədə ətraflı söhbət gedib.

AZƏRTAC xəbər verir ki, müşavirədə Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev ötən il ərzində əməkhaqqının artırılması sahəsində aparılan islahatlardan danışarkən deyib: "Minimum əməkhaqqının iki dəfə artması dövlət sektorunda çalışan, müxtəlif kateqoriyada işləyən insanların əməkhaqlarının ciddi şəkildə, 20 faizlə 100 faiz arası artırılması və Azərbaycanın minimum əməkhaqqına görə MDB məkanında alıcılıq qabiliyyəti üzrə ikinci yerə çıxması və digər inzibati tədbirlər nəticəsində ölkədə 2019-cu il ərzində 153 min əmək müqaviləsi artdı. Təqdirəlayiqdir ki, bunun 99 mini, yəni, böyük hissəsi məhz özəl sektorun, 54 mini isə dövlət sektorunun payına düşdü. Əməkhaqqı fondu 42,3 faiz artdı, bu da çox böyük rəqəm idi, cəmi bir il ərzində əldə olunan nəticədir. Əməkhaqqının sosial ədalətli bölgüsünün göstəricisi olan median əməkhaqqı isə cəmi bir ildə 52 faiz artdı, bu da sosial ədalətin geniş şəkildə tətbiqindən irəli gələn islahatların məhz aztəminatlı kəsimə yönəlməsini göstərən bir göstərici idi. Digər tərəfdən, pensiya sahəsində aparılan islahatlar nəticəsində minimum pensiyanın artımı bizi MDB məkanında alıcılıq qabiliyyəti üzrə birinci yerə çıxarmaqla yanaşı, xüsusi şərtlərlə pensiya təyinatı olan hərbçilərimizi əhatə edən böyük bir kontingentdə də 30 faizlik bir artım oldu. Bu islahatların nəticəsində də ölkədə orta pensiya 2019-cu ildə 15 faiz artdı, yaşa görə pensiya 15 faiz, ən həssas kateqoriya olan əlilliyə görə pensiya isə 22 faiz artdı".

***Son illər Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoyub desək, yanılmarıq. Qeyri-neft sektorunda mühüm istiqamətlərdən olan kənd təsərrüfatının inkişafının prioritet hesab edildiyi respublikada, ötən müddət ərzində görülən işlər və həyata keçirilən islahatlar öz məntiqi nəticəsini verməkdədir. Bunu isə şərtləndirən əsas amillərdən biri hər region üzrə spesifik olan sahələrin müəyyənləşdirilməsi və həmin sahələrin inkişafına diqqətin artırılmasıdır.***

# Aqrar sahədə aparılan islahatlar, real nəticələr

*Prezident İlham Əliyev: "Azərbaycanda kənd təsərrüfatı ilə məşğul olanlara dövlətin verdiyi dəstək heç bir başqa ölkədə yoxdur"*



Bir əsas məqamı, xüsusi olaraq vurğulamaq lazımdır ki, etibarlı ərzaq təminatı hər bir ölkənin iqtisadi sabitliyinin və sosial dayanıqlılığının başlıca şərtidir. Bu baxımdan, Azərbaycan dövləti əhalinin ərzaqla etibarlı təminatına dair tədbirlər həyata keçirməkdə davam edir. Ölkədə ərzaq təhlükəsizliyinin birbaşa asılı olduğu aqrar sahənin inkişafına yönələn irimiqyaslı dövlət proqramları həyata keçirilməkdədir. Onu da, vurğulamaq lazımdır ki, dövlət



başçısı kənd təsərrüfatına yalnız ölkənin ərzaq təhlükəsizliyini təmin edən əsas sahə kimi baxmır, həm də qeyri-neft bölməsinin aparıcı sektoru kimi yanaşır. Əgər bu gün Azərbaycan fermeri, kənd təsərrüfatı məhsulları istehsalçısı bütün vergilərdən azaddırsa, onlara əkib-becərmək üçün maddi yardım olunursa, motor yağı, yanacaq güzəştli qiymətlərlə satılırsa, aşağı faizlərlə kreditlər verilirsə, toxum, gübrə problemlərinin həllini dövlət öz üzərinə götürürsə və daha neçə-neçə əlverişli şərait, işgüzar mühit yaradırsa, stimullaşdırıcı tədbirlər görürsə, bu, ilk növbədə, Prezident İlham Əliyevdən gələn təşəbbüslərdir.

Elə 2019-cu il dekabrın 19-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında pambıqçılıq mövsümünün yekunları və 2020-ci ildə görüləcək tədbirlərlə bağlı keçirilən müşavirədə də kənd təsərrüfatının, o cümlədən, pambıqçılığın inkişafı sahəsində əldə olunan nailiyyətlərdən danışaraq bildirib ki, bu il əldə olunan rekord həddin olmasının səbəbi, məhz dövlətin dəstəyindən irəli gəldiyi vurğulanıb.

## "Dövlət dəstəyi olmadan pambıqçılıq inkişaf edə bilməz"

Dövlət başçısı keçirilən müşavirədə, xüsusilə, son illər pambıqçılıq sahəsində əldə olunan nailiyyətlərin, məhz dövlətin dəstəyinə əsasən, inkişaf etdiyini bildirib: "Bu, doğrudan da, çox böyük göstəricidir və onu göstərir ki, son illər ərzində pambıqçılıqda inkişafla bağlı atılmış bütün addımlar öz səmərəsini verməkdədir. Bu, bir daha onu göstərir ki, dövlət dəstəyi olmadan, pambıqçılıq inkişaf edə bilməz. Biz, demək olar ki, Azərbaycanda pambıqçı-



lığı dirçəltmişik, bunu çox gəlirli sahəyə çevirmişik, pambıqçılıqla məşğul olan rayonlarda məşğulluq problemlərini həll etmişik. Beləliklə, biz qarşımızda duran bütün vəzifələrə nail olmuşuq, bu vəzifələri icra etmişik".

Prezident İlham Əliyev pambıqçılığın inkişafının, məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olduğunu bildirib: "Ancaq ən sürətli artım Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Onun fəaliyyəti nəticəsində, nəinki pambıqçılıq, kənd təsərrüfatının bütün başqa sahələri də uğurla inkişaf etmişdir. Əgər statistikaya nəzər salsaq, görərik ki, Onun dövründə baramaçılıq, üzümçülük, pambıqçılıq, meyvəçilik, tərəvəzçilik pik həddə çatmışdır. Beləliklə, kəndlərdə yaşayan insanlar öz maddi durumunu yaxşılaşdırmış, evlər tikmiş, maşınlar, məişət texnikası almışlar. Bir sözlə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdəki fəaliyyəti Azərbaycanı müttəfiq respublikalar arasında ən geridə qalmış yerlərdən ən qabaqcıl yerlərə ucaltmışdır. Bundan daha önəmli məsələ ondan ibarətdir ki, Azərbaycanda yaşayan insanların rifah halı böyük dərəcədə yaxşılaşdırılmışdır".

## "Pambıqçılıq çox gəlirli kənd təsərrüfatı sahəsidir"

Dövlət başçısı pambıqçılığın çox gəlirli kənd təsərrüfatı sahəsi olduğunu deyərək. 2019-cu ilin rekord nəticələrinin də bunu bir daha təsdiq etdiyin deyib: "Pambıqçılıq çox gəlirli kənd təsərrüfatı sahəsidir. Onu da xatırlayıram ki, mən 2015-ci ildə bu məsələ ilə özüm şəxsən məşğul olmağa başlayanda, bəzi hökumət üzvləri hesab edirdilər ki, pambıqçılıq, ümumiyyətlə, Azərbaycandan çıxarılmalıdır. Bu, gəlirsiz sahədir və bunun heç bir perspektivi, gələcəyi yoxdur. Mən, sözün düzü, təəccüb etdim, çünki necə ola bilər ki, əsrlər boyu pambıq yetişdirilib, əsrlər boyu bizim kəndlər bu sahədə fəal olub. Bu, ənənəvi sahədir, böyük təcrübəmiz var, insanlar buna öyrəşiblər. Məgər Sovet dövründə bilmirdilər ki, harada pambıq əkilə bilər, harada əkilə bilməz. Sovet dövründə hər şeyi bilirdilər. Dövlət Plan Komitəsi var idi, hər şeyi dəqiqliyi ilə bilirdilər harada nə əkilməlidir, harada nə tikilməlidir. Ona görə yenə də deyirəm, bizim baxışlarımız və çox məqsədyönlü siyasət, pambıqçılığı gəlirli sahəyə çevirdi və artıq gəlirlər zənciri də yaradıldı".

## "Dünyada ikinci belə ölkə tapılmaz ki, fermerlərə bu qədər şərait yaratsın, onlara belə güzəştlər etsin"

Göründüyü kimİ, ölkəmizdə aqrar sahənin inkişafına dövlət dəstəyi getdikcə artır, bu sahədə bir sıra stimullaşdırıcı tədbirlər həyata keçirilir. Təkcə onu qeyd etmək kifayətdir, artıq uzun illərdir ki, Azərbaycanda fermerlərə güzəştli kreditlər ayrılır, "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən gətirilən texnikalar əlverişli şərtlərlə sahibkarlara icarəyə verilir. Bundan əlavə, aqrar sahədə istehsalçı marağını artırmaq məqsədilə gübrələr və yanacaq da son dərəcə əlverişli şərtlər əsasında paylanılır. Ən başlıcası isə, uzun illərdir ki, fermerlər, torpaq vergisi istisna olmaqla, bütün digər vergilərdən azaddırlar. Əlbəttə, dövlət başçımızın təbirincə desək: "dünyada ikinci belə ölkə tapılmaz ki, fermerlərə bu qədər şərait yaratsın, onlara belə güzəştlər etsin".

Göründüyü kimi, bütün bunlar isə, heç şübhəsiz, ölkədə kənd təsərrüfatının daha da inkişaf etdirilməsinə, aqrar sahədə sahibkarlıq hissinin gücləndirilməsinə, daxili bazarda məhsul bolluğunun təmin edilməsinə hesablanmış addımlardır. Hətta yaxın illərdə Azərbaycanın kənd təsərrüfatı məhsulları ixrac edən ölkəyə çevrilməsi də başlıca hədəf olaraq seçilmişdir. Bu məqsədə çatmaq üçün isə ölkəmizdə hər cür imkan, ən başlıcası isə, dövlət dəstəyi mövcuddur. Xüsusilə, 2017-ci ildə regionlarda yaradılmış aqroparklar, aqro sənaye məhəllələri kənd təsərrüfatının inkişaf sahələrini göstərən amillərdən biridir. Eyni zamanda, son illər regionlarda pambıqçılıq, baramaçılıq, tütünçülük, bağçılıq, çayçılıq, fındıqçılıq sahəsində xeyli inkişaf baş vermiş, istehsal olunan məhsullar ixraca göndərilib. Kənd təsərrüfatı sahəsinin inkişafı nəticəsində, xeyli iş yerləri açılıb. Təkcə fındıq və tərəvəz məhsulun ixracından milyonlarla vəsait dövlət büdcəsinə daxil olubdur. Heyvardarlıq sahəsində son vaxtlar əldə olunan nəticələr, onu göstərir ki, yaxın müddətdə ölkəmiz özünü ət və süddə təmin edəcəkdir. Bir sözlə, bütün bu nailiyyətlər, onu deməyə əsas verir ki, daima inkişaf edən kənd təsərrüfatı sahəsinin 2020-ci ildə də inkişafı gözlənilir.

Göründüyü kimi, Azərbaycan iqtisadiyyatının prioritet sahələrindən biri olan kənd təsərrüfatının inkişaf etdirilməsinə dövlət tərəfindən göstərilən diqqət və qayğı ildən-ilə artır. Kənd təsərrüfatı xərclərinin dövlət büdcəsindəki xüsusi çəkisinin ilbəil artırılması isə, onu deməyə əsas verir ki, Azərbaycan yaxın illərdə özünü vacib ərzaq məhsulları ilə təmin etməklə yanaşı, həm də bu sahədə regionun əsas ixracatçı ölkəsinə çevriləcəkdir.

**RƏFİQƏ KAMALQIZI**

## Çay ixracı artıb



Ötən il ölkədən 1,5 min ton çay ixrac olunub. Dövlət Gömrük Komitəsi xəbər verir ki, ixrac edilən çayın dəyəri 9,5 milyon ABŞ dolları olub. Xatırladaq ki, 2018-ci ildə dəyəri 9,3 milyon dollar olmaqla 1,3 min ton çay ixrac edilib.

## Keçən il avtomobil nəqliyyatı ilə 1,3 milyon tondan çox yük ixrac edilib

Ötən il Azərbaycandan avtomobil nəqliyyatı ilə 1,3 milyon tondan çox yük göndərilib. Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a verilən məlumata görə, bu nəqliyyat növü ilə ölkəyə idxal olunan yüklərin həcmi isə 2,4 milyon ton təşkil edib.

# "Ermənistan regional və beynəlxalq layihələrdən kənarda qalıb"



***Ermənistanın baş naziri Nikol Paşinyanın bir müddət əvvəl ölkəsinin iqtisadi cəhətdən guya Azərbaycandan irəliyə keçməsini iddia etməsi nəinki onun ölkəsində, eləcə də bir sıra beynəlxalq siyasi dairələrdə istehza ilə qarşılandı. O cümlədən, belə bir yalançı iddia ümumiyyətlə onun get-gedə aşağı düşən reytinqinə ağır zərbə vurdu. Bunu Trend-ə açıqlamasında "SƏS" qəzetinin baş redaktoru, siyasi ekspert Bəhruz Quliyev Prezident İlham Əliyevin yanında 2019-cu ilin yekunlarına dair keçirilən müşavirədə dövlət başçısının Ermənistanla bağlı fikirlərini təhlil edərkən deyib.***

Ekspertin sözlərinə görə, Azərbaycan bütün cəhətlərdən Ermənistanı üstələyib və işğalçı ölkənin dövrünü yaşaması onun hətta uzun illər ötsə belə, bizi keçmək şansına sahib ola bilməyəcəyi gözlər önündədir. Cənab İlham Əliyev çıxışında xatırladıb ki, Azərbaycan ali liqada, Ermənistan isə üçüncü liqadadır və getdikcə bu fərq daha da böyüyəcək. Əlbəttə, təkcə bu fərqdən də görünür ki, heç bir iqtisadi imkanları olmayan, əhalisinin sosial-rifah halı günü-gündən pisləşən, ordusunda özbaşınalıqlar olan bir ölkənin inkişaf etmək şansları sıfıra bərabərdir. Bu baxımdan, dövlətimizin başçısı qeyd edib ki, Azərbaycan Ermənistanı bütün əsas parametrlər üzrə böyük fərqlə qabaqlayır. Bütün bu kimi uğursuzluqların təməlində dayanan daha bir reallıq Ermənistanın işğalçılıq siyasəti yürütməsi, bu siyasətindən əl çəkməməsidir",

B.Quliyev əlavə edib ki, həmin yanlış siyasətin sübutudur ki, Ermənistan istər regional, istərsə də beynəlxalq layihələrdən kənarda qalıb, sosial-iqtisadi sahəsi digər sahələrdə olduğu kimi tamamilə çöküb: "O cümlədən, Ermənistanda kimin hakimiyyətdə olmasından asılı olmayaraq, təcavüzkar ölkənin ordusu ciddi karroziya dövrünü yaşayır, kəskin hərbi-siyasi deqradasiyaya sürüklənir. Prezident İlham Əliyev cənabları bu faktı da xatırlatmaqla həmin sübutu rəqəmlərə də göstərib. Belə ki, dünyanın ən güclü orduları reytinqində Azərbaycan 52-ci, Ermənistan isə 96-cı yerdədir. Yəni fakt budur ki, Ermənisan heç güclü ordular sırasında da yer almayıb və ümumi sıralamada autsayderlik edir. Bunun isə daha bir isbatı Azərbaycanın iqtisadi potensialının dinamik artımı və bu potensialın hərbi-müdafiəyə, hərbi sənayeyə də müsbət təsirlər göstərməsidir. Ümumiyyətlə, ölkəmizin silah arsenalının yüksək keyfiyyətə malik olması, dünyanın ən müasir silahlarla təchizatı amili, həmçinin hərbçilərimizin hərbi-hazırlıq standartlarının ali üstünlüyə malikliyi qeyd edilən fikirləri tamamlayır".

Baş redaktor Prezident İlham Əliyevin Ermənistanın siyasi baxışlarının birbaşa faşizm maraqlarına söykəndiyini də xatırladaraq deyib ki, ötən əsrin əvvəllərində yaranan erməni respublikası yarandığı gündən qonşularına qarşı təcavüzkar mövqe sərgiləyib: "Bunu müşavirədə Prezident İlham Əliyev cənabları da vurğulayıb və sübut kimi, Azərbaycan faşizmin qəhrəmanlaşdırılmasına qarşı ardıcıl mübarizə apardığını, Ermənistanın isə faşistləri qəhrəmanlaşdırmasını göstərib. Ölkə başçımız Ermənistanın əsrlər boyu qonşulara xor gözlə baxdığını, qonşulardan nəsə qoparmaq istədiyini, onların torpağına iddia etdiklərini, tarixini və tarixi abidələrini isə saxtalaşdırdığını, süni şəkildə özününküləşdirdiyini xatırladıb. Ona görə də, indi belə bir ağır, çıxılmaz vəziyyətdə çabalayır. Bu səbəbdən, cənab İlham Əliyev onu da qeyd edib ki, Ermənistan bu gün Azərbaycanın səyləri nəticəsində siyasi, iqtisadi, investisiya, enerji və nəqliyyat dalanına sıxılıb. Paşinyanın sərsəm iddialarına gəlincə isə onun gətirdiyi rəqəmlər nağıl və əfsanədir. Hər halda, erməni baş nazir bu kimi iddiası ilə həm özünü, həm də ölkəsini kifayət qədər ələsalınmaq vəziyyətinə gətirib".

## Sərhəd döyüş məntəqələrimiz və avtomobil yolu atəşə tutulub



Azərbaycan-Ermənistan dövlət sərhədinin Qazax və Ağstafa rayonları istiqamətində müdafiə və mühafizəsini həyata keçirən Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Qazax" əlahiddə sərhəd diviziyasının döyüş mövqelərinə qarşı düşmən tərəfinin təxribatları davam edir. DSX-dən SİA-ya verilən məlumata görə, 15 yanvar tarixində 16:00 radələrindən başlamaqla Qazax rayonunun Məzəm kəndi istiqamətindəki sərhəd döyüş məntəqələrimiz və Qazax rayon mərkəzindən Məzəm kəndinə gedən avtomobil yolu ER-nın İcevan rayonunun Berkaber kəndi yaxınlığında yerləşən Ermənistan Silahlı Qüvvələrinin bölmələri tərəfindən iri çaplı silahlardan və snayper tüfənglərindən intensiv atəşə tutulub.

Düşmən təxribatının qarşısı alınıb, sərhəd döyüş məntəqələrimizə qarşı atəşin açıldığı Ermənistan Silahlı Qüvvələrinin döyüş mövqeləri cavab atəşi ilə susdurulub.

## Türkiyənin məqsədi Liviya və İdlibdə siyasi sülhə nail olmaqdır



Türkiyənin məqsədi, göstərdiyimiz səylər Liviya və İdlibdə siyasi sülhə, sabitliyə, axan qanın qarşısını almağa nail olmaqdır. AZƏRTAC xəbər verir ki, bu fikri Türkiyə Milli Müdafiə Naziri Hulusi Akar söyləyib. O bildirib ki, Liviyada atəşkəsin qorunması üçün cəhdlər davam etdirilir. Atəşkəsin və sülhün alternativi olmadığını qeyd edən nazir vurğulayıb ki, Berlində Liviya ilə bağlı keçiriləcək konfransdan müsbət nəticə gözlənilir.

## Avropa İttifaqı iqlim böhranı ilə mübarizəyə bir trilyon avro ayıracaq

Avropa İttifaqı iqlim dəyişikliklərinə qarşı mübarizə tədbirlərini gücləndirmək məqsədilə 2030-cu ilədək bir trilyon avro vəsait ayıracaq. Belə ki, 2050-ci ilədək "iqlim neytrallığı" elan edən Aİ bu büdcə ilə ilk növbədə müasir iqlim və enerji layihələrinin xüsusilə çətinliklə həyata keçdiyi Avropa regionlarına yönəldəcək. Buraya kömür mədənləri yerləşən regionlar, infrastruktur və iqtisadiyyatı klassik resurslara söykənən regionlarda bərpaolunan enerji mənbələrə çıxışın təmin olunması, nəqliyyat və fərdi enerji sərfiyyatında müasir texnologiyalardan istifadəyə sərmayə yatırılması daxildir.

## Hacıqabul sakinindən narkotik vasitə götürülüb

Hacıqabul Rayon Polis Şöbəsinin əməkdaşları narkotiklərin qanunsuz dövriyyəsinin qarşısının alınması, həmin əməlləri törədən şəxslərin aşkarlanaraq məsuliyyətə cəlb olunmaları istiqamətində əməliyyat tədbiri həyata keçiriblər.

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Şirvan regional qrupundan AZƏRTAC-a bildiriblər ki, narkotik vasitələrin qanunsuz dövriyyəsi ilə məşğul olmaqda şübhəli bilinən rayon sakini, əvvəllər məhkum olunmuş 51 yaşlı Azad Yusifli polis əməkdaşları tərəfindən saxlanılaraq şöbəyə gətirilib. Şöbədə onun üzərində şəxsi axtarış keçirilən zaman ümumi çəkisi yarım kiloqrama yaxın qurudulmuş marixuana aşkar edilərək götürülüb.



Faktla bağlı Hacıqabul Rayon Polis Şöbəsinin istintaq bölməsində Cinayət Məcəlləsinin müvafiq maddələri ilə cinayət işi başlanıb, istintaq gedir.

# Nigar Arpadarai: "2016-2019-cu illərdə keçirilən Formula 1 yarışları Azərbaycan iqtisadiyyatına zöyük fayda verib"




***"PricewaterhouseCoopers" (PwC) beynəlxalq audit şirkətinin apardığı müstəqil araşdırmanın nəticələrinə görə, 2016-2019-cu illərdə Bakıda təşkil edilən Formula 1 yarışları ölkəmizin iqtisadiyyatına əhəmiyyətli dərəcədə fayda verib. AZƏRTAC xəbər verir ki, bu sözləri "Bakı Şəhər Halqası" Əməliyyat Şirkətinin (BŞH) marketinq və kommunikasiya şöbəsinin rəhbəri Nigar Arpadarai yanvarın 15-də təşkil olunan mətbuat konfransında deyib.***

N.Arpadarai bildirib ki, araşdırmanın nəticələrinə görə, indiyədək Bakıda keçirilmiş Formula 1 yarışları ümumilikdə 506,3 milyon dollar gəlir gətirib. Hesabatda 506,3 milyon dollar olaraq göstərilən yekun məbləğ yarışlar ərəfəsində Formula 1 ilə əlaqədar Bakıya gələnlərin xərcləri əsasında yaranmış birbaşa və dolayı gəlirləri əhatə edir. Bu rəqəmə iqtisadiyyatın müxtəlif sahələrində, o cümlədən peşəkar xidmətlər, mehmanxana, restoran, nəqliyyat, sosial və mədəni xidmətlər, kənd təsərrüfatı, poçt və telekommunikasiya, topdan ticarət və digər sektorlarda qeydə alınmış gəlirlər daxildir.

"Birbaşa gəlirlərdə əsas yeri turizm, mehmanxana və nəqliyyat sektoru tutur. Bakıda keçirilmiş dörd Formula 1 yarışı ərzində qeydə alınmış birbaşa gəlirlərin 73,8 milyon dolları məhz bu sektorların payına düşür. Həmin dövrdə ümumilikdə birbaşa gəlirlər 300,6 milyon dollar təşkil edib. Bu göstəriciyə Formula 1 ilə əlaqədar Bakıya gələn qonaqlara və yarış iştirakçılarına mehmanxana, restoran, nəqliyyat və sair istiqamətlər üzrə təqdim olunmuş məhsul və xidmətlər, həmçinin bununla birbaşa əlaqədə yaranmış digər gəlirlər daxildir. Dörd Qran-Pri ərəfəsində qeydə alınmış dolayı gəlirlər isə ümumilikdə 205,7 milyon dollar təşkil edib", - deyə BŞH rəsmisi diqqətə çatdırıb.

Ölkəmizin beynəlxalq miqyasda daha geniş auditoriyaya tanıdılmasında da Formula 1 yarışlarının böyük rol oynadığını deyən BŞH-nin rəsmisi vurğulayıb ki, 2018-ci ildə keçirilən Azərbaycan Qran-Prisini 82,3 milyon televiziya tamaşaçısı izləyib. Bu göstərici 2019-cu ildə 10 faiz artaraq 90,2 milyon nəfər təşkil edib. Qeyd edək ki, builki Formula 1 Azərbaycan Qran-Prisi iyunun 5-7-də Bakı şəhər halqasında keçiriləcək.

## Nikol Paşinyan istintaq komitəsində ifadə verib



Ermənistanın baş naziri Nikol Paşinyan ifadə vermək üçün dünən istintaq komitəsinə gedib. AZƏRTAC Ermənistan mətbuatına istinadla xəbər verir ki, bu barədə Paşinyan özünün Facebook səhifəsində yazıb. Onun sözlərinə görə, ölkənin fəaliyyətdə olan rəhbəri Ermənistan tarixində ilk dəfə olaraq istintaq komitəsinin çağırışı ilə gəlir və müstəntiqin kabinetində sualları cavablandırır. Baş nazir hansı iş barədə ifadə verdiyini açıqlamayıb. Paşinyan istintaq komitəsinin binasından çıxdıqdan sonra jurnalistlərin suallarına cavab verməkdən imtina edib. News.am internet portalının məlumatına əsasən, baş nazirin dindirilməsi 40 dəqiqə çəkib.



# “Könüllülər İli” - perspektivlik, uğur və sağlam gələcək üçün!

## Prezident İlham Əliyevin bu qərarı gənclərin həyatlarına stimul verir

Bir çox xarici ölkələrdə müxtəlif sahələri əhatə edən könüllülük hərəkatı fəaliyyət göstərir. Bu hərəkatın tərkib hissəsində dayanan aspektlərdən biri də, həmin hərəkatda, xüsusilə, gənclərin iştirak etmələridir. Məhz gənclik reallığı belə hərəkatların böyüməsinə, əhatə dairəsinin genişləndirməsinə öz münbit töhfələrini verməkdədir. Prezident İlham Əliyev tərəfindən 2020-ci ilin “Könüllülər İli” elan etməsi də bu xüsusdadır. Daha doğrusu, həmin qərar daha öncəki illərdə ölkəmizdə mövcud olan könüllülər hərəkatının yüksək fəallığının nəticəsidir. Azərbaycanda keçirilən bütün mötəbər idman, mədəniyyət və s. tədbirlərində - “Avroviziya” Mahnı Müsabiqəsində, I Avropa Oyunlarında, “Formula-1” yarışlarında, IV İslam Həmrəyliyi Oyunlarında və s. irimiqyaslı beynəlxalq tədbirlərdə, ASAN XİDMƏT-də, DOST və digər xidmət sahələrində könüllülər mühüm işlər aparıb, bu tədbirlərin ən yüksək səviyyədə keçirilməsində iştirakçı olublar. Eyni zamanda, könüllülərin ən yüksək səviyyədəki iştirakları həm də belə deməyə əsas verir ki, bu hərəkat qarşıda daha nəhəng layihələrdə özünü təsdiqləmiş olacaq.

### Bütün bunların hər birində iştirak edən gənclərimiz, əsasən, öz perspektivlərini açır və gələcəklərini müəyyən edir

Bu gün ictimai rəyin bəzi təmsilçiləri könüllülük hərəkatını “pulsuz işləmək” adı ilə cəmiyyətdə mənfiləşdirməyə cəhdlər göstərir və hərəkatın fəaliyyətinə kölgə salmağa çalışırlar. Amma bu iddialar nə qədər doğrudur və hansı dərəcədə ədalətli mövqe hesab edilə bilər?

Düzdür, könüllülük deyərkən, biz burada öz istəyi, şəxsi seçimi əsasında, əvəzi ödənilməyən fəaliyyət növünün şahidi oluruq. Amma burada, daha bir mühüm faktor var ki, həmin faktor özündə bir çox digər nüasnları ehtiva etməkdədir. Misal üçün, yuxarıda qeyd edilən sahələrdən başqa, yaşlı insanlara qayğı, təbiətin qorunub-mühafizə edilməsi üçün keçirilən kampaniyalar, tarixi irsin qorunması və tanınması üçün gerçəkləşdirilən işlər, ölkəmizin xaricdə tanıdılması yönündə reallaşdırılan planlar və s. Bütün bunların hər birində iştirak edən gənclərimiz, əsasən, öz perspektivlərini açır, gələcəklərini müəyyən edir, uğurlu seçimləri ilə gələcəyin münbit kadr potensialına çevrilir, habelə, sağlam həyat müstəvisində inkişaf edirlər. Ən əsası isə, ölkə üçün, dövlət üçün əsl vətəndaşa çevrilirlər. Məhz bu həqiqətdən nəticə çıxarmaqla, cari 2020-ci il “Könüllülər İli” olaraq tariximizə yazıldı.

### Bu hərəkat qarşıda daha böyük vəzifələri önə sürəcək, “Könüllülər İli” reallığı gənc nəslin əməli fəaliyyətlərini və əsl gücünü ortaya qoyacaq

Azərbaycan Prezidenti İlham Əliyev Cənablarının bu qərarı, həm də onu sübuta yetirdi ki, Onun ətrafında nəhəng gənclik ordusu birləşib və bu ordu dövlətimizin inkişafında və tərəqqisində öz əsrarəngiz fəaliyyətləri ilə seçilirlər. Həmçinin, dövlət başçımızın apardığı çoxşaxəli islahatlarının daha bir tərəfi, gənclər siyasəti strategiyasıdır ki, bu strategiya özündə əhəmiyyətli məqamları əks etrirməkdədir. Lakin bu məqamların hər birində dövləti sevmək, onun üçün, hətta təmənnasız olaraq, xidmət göstərmək istəyidir. Könüllülər hərəkatının ən ali göstəricilərindən biri də, məhz bu gerçəklikdir. Hər bir gənc bu hərəkatda əvəzsiz, təmənnasız və maddiyat marağı olmadan iştirak etmək arzusundadır!

Əbəs deyil ki, bu gün könüllülər hərəkatında iştirak edən gənc nəslin nümayəndələri uğura gedən yolun, məhz bu prinsipdən keçdiyini qeyd edirlər. Karyera yüksəlişi, uğurlu müqəddərat amili də, əlbəttə ki, həmin prinsipin tərkib hissəsi olaraq qiymətləndirilməkdədir. Bütövlükdə isə, bu hərəkat qarşıda daha böyük vəzifələri önə sürəcək, “Könüllülər İli” reallığı gənc nəslin əməli fəaliyyətlərini və əsl gücünü ortaya qoyacaq.

**Rövşən**

# “Yeşil İğdır” qəzetinin baş redaktoru: Türkiyədə Azərbaycan həqiqətlərinin yayılması üçün səylə çalışırıq

Türkiyədə Azərbaycan həqiqətlərinin yayılması üçün səylə çalışırıq. Azərbaycanın hərtərəfli inkişafı bizi çox sevindirir. Bu fikirləri “Azərbaycan Respublikasının diplomatik xidmət orqanlarının 100 illiyi (1919-2019)” yubiley medalı ilə təltif olun “Yeşil İğdır” qəzetinin baş redaktoru, “15 Temmuz” qəzetinin təsisçisi Cabbar Şıktaş AZƏRTAC-a açıqlamasında deyib.



Baş redaktor Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin Naxçıvana rəhbərlik etdiyi dövrdə “Milliyet” və “Yeşil İğdır” qəzetlərinin xüsusi müxbiri olaraq həqiqətləri əks etdirən xəbərlərlə dünya ictimaiyyətinin diqqətini Naxçıvana, həmçinin Dağlıq Qarabağ münaqişəsinə yönəltmək istiqamətində fəaliyyətlərini xatırladıb. “Fəxr edirəm ki, bu tarixi missiya mənim taleyimə nəsib olub. Azərbaycanın yüksək medalı ilə təltif olunmaqdan qürur duyuram. Bu medal indiyə qədər aldığım mükafatlar arasında çox qiymətlidir”.

# YAP İcra Katibliyində Saleh Məmmədov mətbuat konfransı keçirib




*Dünən Yeni Azərbaycan Partiyasının İcra Katibliyində Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov mətbuat konfransı keçirib. SİA-nın verdiyi məlumata görə, mətbuat konfransında 2019-cu il ərzində yerinə yetirilmiş işlər barədə ətraflı məlumat verilib.*

S.Məmmədov bildirib ki, Azərbaycan Prezidenti İlham Əliyevin yol infrastrukturu ilə bağlı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi qarşısında konkret tapşırıqlar qoyub. Onun sözlərinə görə, dövlət başçısının tapşırığına uyğun olaraq Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin kollektivi tərəfindən 2019-cu il ərzində 1376,6 km uzunluğunda avtomobil yolları, prospekt və küçələr tikilmiş, yenidən qurulmuş və təmir olunub. O cümlədən, respublika əhəmiyyətli 139,8 km, yerli əhəmiyyətli 908,8 km, Bakı şəhəri üzrə 301,5 km, Sumqayıt şəhəri üzrə 26,5 km yol çəkilib.

S.Məmmədov qeyd edib ki, 2019-cu il ərzində respublikamızın ümumi istifadədə olan avtomobil yollarında 14 yeni körpü tikilmiş, 17 qəzalı vəziyyətə düşmüş körpü bərpa edilib, 7 yeraltı və 6 yerüstü piyada keçidində təmir işləri aparılıb. Ümumilikdə 2019-cu il ərzində cənab Prezidentin imzaladığı sərəncamlara uyğun olaraq 54 layihə, o cümlədən 5 respublika əhəmiyyətli, 39 kəndlərarası, 10 Bakı şəhərinin qəsəbələrarası avtomobil yolu layihələri üzrə tikinti və yenidənqurma işləri başa çatıb.

Bundan əlavə “Avtomobil Yolları” Məqsədli Büdcə Fondu vəsaiti hesabına uzunluğu 43,8 km olan 3 Respublik əhəmiyyətli, uzunluğu 79,3 km olan 13 kəndlər arası avtomobil yolu layihəsi, habelə uzunluğu 197,6 km olan Bakı şəhər yollarının tikintisi, yenidən qurulması və təmiri işləri yerinə yetirilib.

Ötən il ərzində ümumilikdə Dövlət Agentliyi tərəfindən 128, 9 min ton bitum və 15,6 min ton mazut istifadə edilmiş, 2 343,0 min ton asfalt-beton istehsal edilmişdir. Asfalt-beton qarışıqlarının keyfiyyətini yüksəltmək məqsədilə Azərbaycan Respublikası Milli Elmlər Akademiyasının tövsiyəsini nəzərə alaraq, 78,1 ton bituma adgeziya qatqısı alınaraq asfalt-beton örtüyünün tikintisində istifadə edilib.

Bakı şəhərinin avtomobil yolları ilə bağlı məlumat verən S.Məmmədovun sözlərinə görə, 2019-cu il ərzində Bakı şəhərində ümumi uzunluğu 301,5 km kilometr olan şəhər yolları yenidən qurulmuş və təmir olunmuşdur. O cümlədən, uzunluğu 103,9,0 km olan investisiya vəsaiti hesabına, uzunluğu 197,6 km olan “ Avtomobil Yolları” Məqsədli Büdcə Fondu vəsaiti hesabına aparılıb.

“Cənab Prezidentin imzaladığı Sərəncamlara uyğun olaraq yenidən qurulan aşağıdakı layihələr başa çatmışdır: Sabunçu rayonunda Zabrat-Maştağa yolu - “Savalan” yaşayış massivi (3,4 km), Sabunçu rayonu Bakıxanov qəsəbəsi ilə Suraxanı rayonunun Qaraçuxur və Yeni Suraxanı qəsəbələrini birləşdirən avtomobil yolu ( 5,1 km), Suraxanı rayonunda Hövsan qəsəbəsi ilə Zeytun sovxozunu birləşdirən avtomobil yolu ( 6,6 km), Nərimanov rayonunda yenidən qurulan, uzunluğu 6,0 km olan Aşıq Molla Cümə küçəsinin və ona bitişik yollar və digər tədbirlər həyata keçirilib. Cənab Prezident tərəfindən əhali və yerli İcra Hakimiyyəti orqanları tərəfindən edilən müraciətlər nəzərə alınaraq, 2019-cu il ərzində Bakı şəhərinin Xəzər rayonu, Binəqədi rayonu, Suraxanı rayonunun Yeni Suraxanı qəsəbəsi, Sabunçu rayonu ərazisində qəsəbə daxili yolların əsaslı təmiri üçün Sərəncamlar imzalamış və işlər sürətlə və keyfiyyətlə davam etdirilir. 2019-cu il ərzində Bakı şəhər yollarında 1019,4 min m2 sahədə asfalt-beton örtükdə cari təmir işləri də yerinə yetirilmişdir”-deyə, Dövlət Agentliyinin rəhbəri vurğulayıb.

Daxili investisiya hesabına yerinə yetirilən respublika əhəmiyyətli layihələrə gəlincə S.Məmmədov diqqətə çatdırıb ki, Azərbaycan Respublikası Prezidenti tərəfindən 2019-cu il 15 yanvar tarixli 890 nömrəli Sərəncamı ilə təsdiq edilmiş 2019-cu ilin dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) xərcləri hesabına Şirvan-Salyan avtomobil yolu (31 km, 2 hərəkət zolaqlı), Lənkəran-Lerik avtomobil yolu (51 km, 2 hərəkət zolaqlı), Cəlilabad-Yardımlı avtomobil yolunun Cəlilabad hissəsinin bərpası (34,8 km, 2 hərəkət zolaqlı) işləri başa çatdırılmış, Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun tikintisi ( 92,0 km, 4 hərəkət zolaqlı), M-1 Bakı-Quba-Rusiya Federasiyası ilə dövlət sərhədi yeni avtomobil yolunun 132-197 km hissəsinin tikintisi( 60,0 km, 4 hərəkət zolaqlı) işləri davam etdirilib.

Bundan əlavə Bakı şəhəri, Xətai rayonunda “Ağ şəhər” layihəsi çərçivəsində uzunluğu 2,0 km, eni 37,0 m olan Mərkəzi Bulvar küçəsinin Nobel prospektinə çıxışı təmin edilmiş və dekabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın iştirakı ilə açılış mərasimi keçirilib.

Samur “(Azərbaycan Respublikası)” Yaraq Qazmalar” (Rusiya Federasiyası) buraxılış məntəqələri ərazisində Samur çayı üzərində avtomobil körpüsünün tikintisi başa çatdırılaraq 2019-cu il dekabr ayının 24-də Azərbaycan və Rusiya Federasiyasının rəsmilərinin iştirakı ilə açılış mərasimi keçirilib.

Xarici kredit hesabına yerinə yetirilən layihələrə gəlincə, S.Məmmədov söyləyib ki, 2019-cu il ərzində xarici kredit vəsaiti hesabına M-2 magistral avtomobil yolunun Gəncə-Gürcüstan Respublikası ilə dövlət sərhədi hissəsinin 4 zolağa genişləndirilməsi (130,15 km, 4 hərəkət zolaqlı), R-32 Ucar-Zərdab-Ağcabədi avtomobil yolunun yenidən qurulması (70,5 km, 2 hərəkət zolaqlı), M-5 magistral avtomobil yolunun Yevlax-Şəki hissəsinin yenidən qurulması (58,12 km, 2 hərəkət zolaqlı), R-32 Bəhrəmtəpə-Biləsuvar avtomobil yolunun bərpası (59.8 km, 2 hərəkət zolaqlı) layihələri üzrə işləri davam etdirilib. Daha sonra S.Məmmədov jurnalistlərin suallarını cavablandırıb.

**_Müasir dövrdə dünya qloballaşır və sosiallaşır. Yaşadığımız yüzillikdə informasiyanın rolu böyükdür. Bu gün informasiya elə bir vəziyyətdədir ki, istəsək də, istəməsək də, qapımızı döyür. Əlimizdə olan telefonla bütün dünyadan məlumat ala bilirik. Hər keçən gün inkişaf etməkdə olan texnologiya həyatımızın böyük bir hissəsinə sirayət etməkdədir. Virtual məkan genişləndikcə, internetdə mövcud olan sosial şəbəkələrin də sayı artır. Gündəlik həyatımızda sosial şəbəkələrin müsbət tərəflərini müşahidə etsək də, kifayət qədər mənfi tərəflərini də görürük. Sosial şəbəkələrdə yaranmış vəziyyət bu gün çox böyük aktuallıq kəsb edir. Son zamanlar ölkəmizdə hökm sürən azadlıqdan VƏ sərbəstlikdən suiistifadə edən bəzi insanlar sosial şəbəkələri, onlayın medianı, internet resurslarını, savaş, söyüş meydanına da çevirirlər. Sosial şəbəkələrdə mövcud vəziyyətlə bağlı YAP Binəqədi rayon təşkilatının gənclər birliyinin şura və idarə heyətinin üzvü Yeganə Əsgərli fikirlərini bizimlə bölüşdü:_**



# “Sosial şəbəkələrdən asılılıq insanlarda fiziki və psixoloji fəsadların yaranmasına səbəb olur”

- İnternet həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. İnternet deyəndə, ilk ağıla gələn sosial şəbəkələr olur. Bu gün internetdən istifadə edən insanlar ayrı-ayrı sosial şəbəkələrdən istifadə edir, onlar vasitəsi ilə dostluq və tanışlıqlar qururlar. Bir sözlə, internet gündəlik həyatımızın ayrılmaz bir hissəsidir. Amma bəlkə heç birimiz təsəvvür belə eləmirik, ilk baxışdan çox cəlbedici, dostlarla bol görünən bu virtual dünya real həyatımızda müxtəlif problemlərə yol açır. Təbii ki, hər kəs sosial şəbəkələrdən eyni məqsədlə istifadə etmir. Bəzi insanlar sosial şəbəkələrdən müəyyən məlumatlar əldə etmək üçün, bəzi insanlar isə vaxtlarını keçirmək üçün istifadə edirlər. Mənim özüm də, hər bir gənc kimi, sosial şəbəkələrdən istifadə edirəm. Müasir dövrdə internet bir dəryadır, deyərdim. Çünki hər bir şey haqqında məlumatlar var.

Həmçinin, qeyd etmək istərdim ki, Azərbaycanda internet və sosial şəbəkələrlə bağlı tənzimlənmə aparılmır. Bu səbəbdən də ölkədə sosial şəbəkələr tam müstəqil fəaliyyət göstərir. Hər bir şəxs sərbəst formada sosial şəbəkələrdən istifadə edir. Sosial şəbəkələrin müsbət cəhətləri də çoxdur. Bunu, bir cümlə ilə ifadə edib deyə bilərəm ki, sosial şəbəkələr uzaqları yaxın edir. Sosial şəbəkələrdə məsafə anlayışı ilə tamamilə yox olur. İnsanların bir-biri ilə ünsiyyət qurmasında, müəyyən məsələlərin müzakirəsində çox böyük üstünlüklər yaradır.

Hər bir şeyin müsbət cəhətləri olduğu kimi, mənfi cəhətləri də vardır. Sosial şəbəkələrdən düzgün istifadə etmədikdə, müəyyən problemlərə rast gəlirik. Xüsusən, insanların aldadılması, müxtəlif cərəyanlara, mənfi yönlü qruplaşmalar, hətta bu dövrümüzün problemi müxalif qüvvələrin oyunlarına cəlb edilməsi mümkündür.

Mənim fikrimcə, buradakı ən vacib məqam insanların bu sahədə maarifləndirilməsidir. İnsanlar sosial şəbəkələrin mənfi cəhətlərini də bilməlidirlər. Bilirsiniz ki, sosial şəbəkələrdə çoxlu sayda informasiya toplanır. Bu informasiyalardan pis məqsədlər üçün də istifadə edilə bilər. Buna görə də sosial şəbəkələrdə işləyərkən, mütləq məlumatlı olmaq lazımdır. Orada gənclərimizi bizim istəmədiyimiz cərəyanlara cəlb etmək imkanları var. Bu təhlükə hər zaman var. Buna görə də insanlar çox diqqətli olmalıdırlar. Digər tərəfdən, sosial şəbəkələrdən asılılıq insanlarda bir sıra fiziki və psixoloji fəsadların yaranmasına səbəb olur. İnsanlarda yuxu pozğunluğu, stress, gərginliklər, fikirlərini hər hansı bir mövzuya cəmləşdirə bilməmələri, canlı ünsiyyət zamanı özlərini ifadə edə bilməmələri və s.. Bu isə həm onların özləri, həm də cəmiyyət üçün arzuolunmaz haldır.

Sosial şəbəkələrin mövcud olması insanların kitab oxumağa olan maraqlarını azaldıb, hətta yox edib, deyərdim. Belə ki, bir gənc məktəbdən və ya universitetdən, hətta işdən evə gələn kimi komputeri açır, bəziləri isə telefonları vasitəsi ilə bütün saatlarını sosial şəbəkədə keçirirlər. Əgər buna sərf etdiyiniz vaxtın yarım saatını belə ayırıb, bir kitab oxusanız, həyatda çox şey öyrənmiş olarsınız. Düzdü, indi deyəcəksiniz ki, online kitablar var. İnternetdən hansı kitabı istəyirsən, onu oxumaq mümkündür. Amma inanın, çox insan internetdən kitab oxumaq üçün istifadə etmir, əsas məqsəd ya oyun oynamaqdır ya da sosial şəbəkədə yazışmaqdır.

Öz fikrimi belə tamamlamaq istərdim: uzaqları kölgəmiz qədər yaxın edən sosial şəbəkələrin həyatımız da rəng qatmasıyla, həyatlarımızıda məhv etməsinə izin verməyək. Unutmayın, bu həyat da hər şey öz əlimizdədir. Çalışaq ki, bu ancaq yaxşılardan ibarət olsun.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Özbəkistan portalında İmadəddin Nəsimi haqqında məqalə yerləşdirilib


iNTERPRESS.UZ Мамлакат ҳаёти Хориж хабарлари Экология Спорт Саломатлик
Қизиқарли хабарлар Сайт ҳақида

СЎНГГИ МАҚОЛАЛАР

Берлинда бўлиб ўтадиган жаҳондаги йирик қишлоқ хўжалиги кўргазмаси – «Яшил ҳафталик»да Ўзбекистон иштирок этади
Мамлакат ҳаёти 15.01.2020

Пойтахт тез ёрдами "Дамас"лардан қутулмоқда. Энди аҳолига ""Ford" реанимобиллари хизмат кўрсатади
Мамлакат ҳаёти 15.01.2020

Тошкентдаги "Hyatt Regency Tashkent" меҳмонхонаси хусусийлаштирилади
Мамлакат ҳаёти 15.01.2020

**2019 йил Ўзбекистоннинг туркий тилли давлатлар ҳамкорлик Кенгашига аъзо бўлиши билан ёдда қолди. Ўтган йилнинг 14 сентябрида мамлакатимиз туркий тилли давлатлар ҳамкорлик кенгашини ташкил этиш тўғрисидаги Нахичеван келишувини ратификация қилди. Халқаро бирлашма доирасидаги**

***Özbəkistanın interpress.uz portalında görkəmli şair İmadəddin Nəsimi haqqında özbək dilində “Dünyanı zəbt edən Azərbaycan şairi” sərlövhəli məqalə yerləşdirilib. AZƏRTAC xəbər verir ki, məqalədə ötən ilin Prezident İlham Əliyev tərəfindən ölkəmizdə “Nəsimi ili” elan olunması, bu məqsədlə ölkəmizlə yanaşı, xarici ölkələrdə də çoxsaylı tədbirlərin həyata keçirilməsindən bəhs olunub.***

Materialda deyilir ki, Nəsimi yaradıcılığı dilçilik, eləcə də Azərbaycan türkcəsinin tarixini öyrənmək baxımından böyük əhəmiyyətə malikdir.

Yazıda vurğulanır ki, Azərbaycan ədəbiyyatında, həm də eşq şairi kimi tanınan Nəsiminin bu qəbildən olan şeirləri fəlsəfi baxımdan dünya poeziyasının inciləri siyahısına daxil edilib. Vurğulanır ki, Azərbaycanda Nəsiminin adını daşıyan institut, rayon, küçə, məktəb, metro var, “Nəsimi” adlı film çəkilib.

Bildirilir ki, şairin əsərləri Azərbaycanla yanaşı, Yaxın Şərq, eləcə də Orta Asiyada geniş şöhrət qazanıb. Qeyd olunur ki, Özbəkistanda İmadəddin Nəsimi çox sevilir. Keçən il Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin təşəbbüsü ilə şairin “Cananı sevərmən” kitabı özbək dilində çap edilib.

# DMX: Son beş ildə 1445 şəxs Avropa ölkələrindən Azərbaycana qaytarılıb

***“2014-cü ildən indiyədək 1445 nəfər Avropa ölkələrindən Azərbaycana geri qaytarılıb.” Ölkəyə qaytarılan azərbaycanlıların böyük əksəriyyəti Almaniyada yaşayıb. Bunu yanvarın 15-də Dövlət Miqrasiya Xidmətinin rəisi Vüsal Hüseynov qurumun ötənilki fəaliyyətinin yekunlarına dair təşkil olunan mətbuat konfransında deyib.***



Xidmət rəisinin sözlərinə görə, readmissiya olunan şəxslərdən Avstriya, Fransa, İsveç, Belçika kimi Avropa ölkələrində yaşayan azərbaycanlılar da olub. Bu günə olan məlumata görə, 1323 nəfər şəxsin readmissiya olunması ilə bağlı sorğular daxil olub. Bu sorğular müsbət cavablandırılıb, lakin geri qaytarılması reallaşmayıb. Ancaq onların da geri qaytarılması gözlənilir. Şəxslər qaytarıldığı təqdirdə Dövlət Miqrasiya Xidməti tərəfindən şəxslərin vəziyyəti, orada hansı problemlərinin olması ilə maraqlanılır. Miqrasiya Xidməti yanında reinteqrasiya üzrə işçi qrupu fəaliyyət göstərir. Orada müxtəlif qurumların nümayəndələri təmsil olunur. Biz bu çərçivədə DMX-də fəaliyyət göstərən reinteqrasiya üzrə işçi qrupu tərəfindən 57-58 şəxsin ehtiyaclarını həyata keçirmişik.

Qeyd edək ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 28 dekabr 2016-cı il tarixli tapşırığına əsasən yaradılan reinteqrasiya işçi qrupuna Xarici İşlər Nazirliyi, Daxili İşlər Nazirliyi, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Dövlət Gömrük Komitəsi və Dövlət Sərhəd Xidmətinin nümayəndələri daxildir. Dövlət Miqrasiya Xidməti işçi qrupda əlaqələndirici qurum qismində çıxış edir.

## Qazaxıstanda Ermənistandan gətirilən avtomobilləri qeydiyyatsız sürməyə icazə verilməyəcək

Qazaxıstan Daxili İşlər Nazirliyi vətəndaşları xarici qeydiyyatda olan nəqliyyatları qeydiyyatdan keçməyə çağırır. Bu gün ölkəyə Ermənistan, Qırğızıstan, Belarus və Rusiyada qeydiyyata alınmış 170 mindən çox nəqliyyat vasitəsi gətirilib. AZƏRTAC xəbər verir ki, Ermənistan və Qırğızıstandan gətirilən avtomobillərə sözügedən ölkələrin Avrasiya İqtisadi İttifaqı üzvlüyü ilə bağlı keçid müddəaları nəzərə alınmaqla, onların istismarına dair ittifaqa üzv dövlətlərinin ərazilərində fəaliyyətinə ciddi məhdudiyyətlər qoyulur.



Məsələn, qeyd olunan ölkələrdə 2014-cü ildən 2020-ci il yanvarın 1-dək qeydiyyata alınmış avtomobillər yalnız Qırğızıstan və Ermənistanda daimi yaşayan şəxslər tərəfindən gömrük rüsumları, vergilər ödənilmədən və gömrük rüsumlarının ödənilməsini təmin etmədən Qazaxıstan ərazisinə müvəqqəti gətirilə bilər.

Qazaxıstan vətəndaşları üçün bu ölkədə Qırğızıstan və Ermənistanda qeydiyyata alınmış nəqliyyat vasitələrinin gətirilməsinə və istifadəsinə yalnız nəqliyyat vasitəsinin gömrük bəyannaməsi, rüsum, vergilərin ödənilməsi və Qazaxıstanda nəqliyyat vasitələrinin sonrakı qeydiyyatı şərti ilə icazə verilir. Ona görə də Qazaxıstanda Avrasiya İqtisadi İttifaqına üzv ölkələrdən gətirilən avtomobilləri qeydiyyatsız sürməyə icazə verilməyəcək.



# BSU-da "Azərbaycan həqiqətləri" adlı tədbir keçirilib



*Dünən BSU-nun Əcnəbi tələbələrlə iş üzrə dekanlığının, Beynəlxalq əlaqələr şöbəsinin, Mədəni-kütləvi tədbirlərin təşkili şöbəsinin, Beynəlxalq münasibətlər, regionşünaslıq və jurnalistika fakültəsinin birgə təşkilatçılığı ilə universitetin Heydər Əliyev Mərkəzində əcnəbi tələbələr üçün "Azərbaycan həqiqətləri" mövzusunda tədbir keçirilib. Tədbirin əvvəlində Azərbaycanın müstəqilliyi uğrunda canından keçmiş soydaşlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.*

Tədbirdə BSU-nun Tərbiyə işləri üzrə prorektoru Xanım Sultanova "20 Yanvar faciəsi müstəqillik yolumuzdur" mövzusunda çıxış edib. Xanım Sultanovanın çıxışında 20 Yanvar faciəsinin mahiyyət və məzmunu konkret tarixi faktlar əsasında öz əksini tapıb.

Əcnəbi tələbələrlə iş üzrə dekan Ülviyyə Məmmədova çıxış edərək, bu tədbirin əcnəbi tələbələrin 20 Yanvar faciəsi haqqında məlumatlandırılması baxımından, mühüm əhəmiyyət kəsb etdiyini vurğulayıb və dekanlığın bu sahədə həyata keçirdiyi tədbirlər barədə ətraflı məlumat verib.

Tədbirdə Azərbaycan tarixi və ictimai elmlər kafedrasının dosent əvəzi Sevda Əhmədova rus dilində əcnəbi tələbələr qarşısında 20 Yanvar faciəsi barədə mühazirə ilə çıxış edərək, faciənin baş verdiyi dövrün tarixi-siyasi şəraitini geniş təhlil edib, bu hadisənin xalqımızın milli-azadlıq hərəkatına böyük təkan verdiyini vurğulayıb.Sonra tədbirdə 20 Yanvar faciəsini əks etdirən "20 Yanvar - qanlı tariximiz" adlı sənədli film nümayiş etdirilib.

Diskussiya formasında davam edən tədbirdə əcnəbi tələbələrin sualları ətraflı cavablandırılıb və maraqlı fikir mübadiləsi aparılıb.

Tədbirdən sonra əcnəbi tələbələrə BSU-nun foyesində təşkil edilmiş 20 Yanvar faciəsi ilə bağlı kitab sərgisi barədə məlumat verilib, həmçinin Azərbaycanın milli qəhrəmanlarının və universitetin şəhid məzunlarının stendinə baxış keçirilib.

***ZÜMRÜD BAYRAMOVA***

# YAP Samux rayon təşkilatında partiyanın müşahidəçilər və məşvərətçilərlə görüşü keçirilib

***Dünən Yeni Azərbaycan Partiyası Samux rayon təşkilatında 9 fevralda keçiriləcək parlament seçkiləri ilə bağlı səsvermə günü seçkilərdə müşahidə aparacaq müşahidəçilər və məşvərətçilərlə görüş keçirilib.***



Görüşdə YAP Samux rayon təşkilatının sədri Gündüz Bayramov çıxış edərək, parlament seçkilərinə hazırlıqla bağlı YAP tərəfindən görülən işlər haqqında məlumat verib: "Yeni Azərbaycan Partiyası qarşıdan gələn seçkilərə ciddi hazırlaşıb, mərhələlər üzrə işlər davam etdirilir".



Görüşdə çıxış edənlər seçki məntəqələrinə və dairələrə təyin edilmiş müşahidəçilərin və məşvərətçilərin vəzifələri barədə ətraflı məlumat veriblər. Seçkilərinin şəffaf, aşkarlıq və demokratiya şəraitində keçirilməsi üçün müşahidəçilərin və məşvərətçilərin daha fəal olmasını, Seçki Məcəlləsində təsbit olunmuş hüquq və vəzifələri səlahiyyətlərinə uyğun əməl etmələri tövsiyə edilib.

Görüş diskussiya şəklində davam edib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***R.KAMALQIZI***

# Qubada müşahidəçilərlə treninq keçirilib





Dünən Yeni Azərbaycan Partiyası Quba rayon təşkilatında 9 fevral 2020-ci il tarixində keçiriləcək parlament seçkiləri ilə əlaqədar 53 saylı Quba-Qusar seçki dairəsi və məntəqələrində səsvermə günündə müşahidəçilərlə treninq keçirilib. Treninqdə çıxış edən YAP Quba rayon təşkilatının sədri Yusif Abidov parlament seçkilərinə hazırlıqla bağlı YAP tərəfindən görülən işlər haqqında məlumat verərək qeyd edib ki, Yeni Azərbaycan Partiyası qarşıdan gələn seçkilərə ciddi hazırlaşıb və mərhələlər üzrə işlər davam etdirilir. Y.Abidov çıxışında seçki məntəqələrinə təyin edilmiş müşahidəçilərin vəzifələri barədə də ətraflı danışaraq, treninq iştirakçılarını məlumatlandırıb. "Parlament seçkilərinin yüksək standartlara uyğun, aşkarlıq və demokratiya şəraitində keçirilməsi üçün müşahidəçilərin üzərinə böyük məsuliyyət düşür" deyə qeyd edən YAP Quba rayon təşkilatının sədri, həmçinin bildirib ki, müşahidəçilərin Seçki Məcəlləsində təsbit olunmuş hüquq-vəzifələri və səlahiyyətləri var: "Ona görə də, müşahidəçilər diqqətli olmalı və üzərlərinə düşən vəzifəni layiqincə yerinə yetirməli və obyektiv monitorinq aparmalıdırlar".

Treninq diskussiya şəraitində keçirilib və iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***Nəzakət ƏLƏDDİNQIZI***

# İstanbulda 127 milyon 500 min saxta ABŞ dolları ələ keçirilib



İstanbul Təhlükəsizlik İdarəsinin maliyyə şöbəsi tərəfindən şəhərdə aparılan əməliyyat nəticəsində 127 milyon 500 min saxta ABŞ dolları ələ keçirilib. AZƏRTAC xəbər verir ki, əməliyyat zamanı saxta pul hazırlamaqda şübhəli bilinən 8 nəfər saxlanılıb, pulların hazırlanmasında istifadə edilən çap maşını müsadirə olunub. Əməliyyatlar davam etdirilir.

# Böyük Britaniya səfiri İrandan getdi



Böyük Britaniyanın İrandakı səfiri Robert Makkayer Tehranı tərk edib. AZƏRTAC xəbər verir ki, R.Makkayer Tehranda tələbələrin keçirdiyi qanunsuz etiraz aksiyasında iştirak etdiyi üçün polis tərəfindən saxlanılıb. Səfir 1 saatdan çox polis bölməsində saxlanıldıqdan sonra azad edilib. Daha sonra səfiri İranın Xarici İşlər Nazirliyinə çağıraraq ona xəbərdarlıq ediblər. İran parlamenti səfirin hərəkətlərini İranın daxili işlərinə qarışmaq kimi qiymətləndirib və hökumətdən onun ölkədən çıxarılmasını tələb edib.

Dünən isə Böyük Britaniyanın Tehrandakı səfirliyi qarşısında aksiya keçirilib. Aksiya iştirakçıları səfirdən ölkəni tərk etməsi tələb olunub. Bu diplomatik qalmaqalın necə qurtaracağı isə hələlik məlum deyil.



# YAP Daşkəsən rayon təşkilatının ərazi ilk partiya təşkilatlarında partiya fəalları ilə görüşlər davam edir



Dünən YAP Daşkəsən rayon təşkilatının Qabaqtəpə, Təzəkənd, Pirverdilər və Tapan ərazi ilk partiya təşkilatlarında partiya fəalları ilə görüşlər keçirilib. YAP Daşkəsən rayon təşkilatının sədri Meydanəli Yolçuyev və idarə heyətinin bir qrup üzvünün iştirak etdiyi görüşlərdə qarşıdakı parlament seçkilərində iştirak edəcək müşahidəçilərlə söhbətlər aparılıb, onlara bəzi lazımi tapşırıqlar verilib.

Həmçinin, görüş zamanı bir qrup YAP sıralarına qəbul olunanlara partiyanın üzvlük vəsiqəsi təqdim edilib.

***Rəfiqə***

# YAP müşahidəçilər və məşvərətçilərə treninq keçirib



Dünən YAP Tərtər rayon təşkilatının qərargahında 9 fevralda keçiriləcək parlament seçkiləri ilə əlaqədar 95 saylı Tərtər Dairə Seçki Komissiyası və məntəqə seçki komissiyaları üzrə təyin olunmuş müşahidəçilərin və məşvərətçilərin treninqi keçirilib.

Treninqdə YAP Tərtər rayon təşkilatının sədri Ramiz Şabanov çıxış edərək bildirib ki, builki parlament seçkilərinə də YAP rayon təşkilatı tərəfindən ciddi hazırlıq işləri görülüb. Seçkilərdə dairə və məntəqələrə YAP tərəfindən təyin olunmuş məşvərətçilər və müşahidəçilər partiya üzvləri arasından seçilmiş fəal şəxslərdir.

R.Şabanov treninq iştirakçılarına seçki günü ərzində seçkinin şəffaflığının təmin olunması sahəsində məşvərətçi və müşahidəçilərin üzərlərinə düşən məsuliyyətdən və vəzifələrdən danışaraq, əmin olduğunu bildirib ki, 9 fevral tarixdə keçiriləcək parlament seçkilərində də Yeni Azərbaycan Partiyası qələbə çalacaqdır.

***R.HÜSEYNOVA***

# 20 Yanvar: Milli rəşadət tariximizin müəmmalı məqamları (I yazı)

*Azərbaycan xalqı yüz illər boyu yadellilərin maraq dairəsində olan müqəddəs Vətən uğrunda qan tökmüş, ən güclü imperiyalara belə mətanətlə sinə gərərək, varlığını qoruyub-saxlamağa nail olmuşdur. Hələ eramızdan əvvəlki dövrlərdən başlayaraq cənnət diyar olan müqəddəs torpaqlarımıza sahib çıxmaq üçün çox fatehlər yolunu burdan salmış, lakin hər dəfə xalqımızın dəyanətli müqaviməti ilə üz-üzə gəlmiş və istəklərinə müvəqqəti nail olsalar belə, sonda yenilməzliyini sübut edən ulularımız Vətəni azad etməyə nail olmuşlar.*






Tarixə ekskurs etməyimiz baxımından, zaman-zaman içimizdən olan bəzi "mənəmlik" iddialı hünərvərlərimizin də tarixi yanlışlıqlarını xatırlatmağa ehtiyac var. Bilərəkdən, ya bilməyərəkdən bu hünərli cəngavərlərin yanlışlıqları ucbatından parçalanıb, hissələrə bölünmüş Azərbaycan XIX əsrin əvvəllərindən etibarən həm cənubdan, həm də şimaldan basqılara məruz qalaraq, yenidən müstəmləkə altına alındı. Bu tarixi yanlışlığın nəticəsində, Azərbaycan ikiyə böləndü və tarixin millətimizə vurduğu bu yaranın qanı hələ də axmaqdadır. On illər boyu müstəmləkə zəncirini qırmaq uğrunda gedən savaş da hər dəfə nəticəsiz qalır, xalqımızın mübarizə öncülləri məhv edilirdi. Yalnız ötən əsrin 70-ci illərində ölkəmizdə formalaşan yeni düşüncə, xüsusilə, milli- mənəvi dəyərlərin ideologiyamızın ana xəttinə çevrilməsi xalqımızı yeni mübarizə dalğasına ruhlandırdı. Ulu Öndər Heydər Əliyevin müxtəlif vasitələrlə Moskvanın hücumlarından qoruduğu dissidentlərin genişmiqyaslı millətçilik təbliğatı yaranan tarixi şəraitdə dərhal özünü büruzə verdi və xalqımız yenidən özünün azadlığı və suverenliyi uğrunda savaşa qalxdı. Bunun qarşısına kötük kimi itələnən Dağlıq Qarabağ problemi süni şəkildə SSRİ rəhbərliyi tərəfindən ortaya atılsa da, bütöv bir millətin suverenliyi uğrunda ayağa qalxan xalqı susdurmaq üçün yetərli olmadı. Azadlıq mücadiləsinin günbəgün kükrədiyini görən Kreml başbilənləri növbəti planı işə salmalı oldular. Bu plan xalqımızın mübarizə əzmini qırmalı, onu azadlıq uğrunda savaşdan döndərməli, Moskvanın itaətində yaşamaq məcburiyyətində qalmağa məcbur etməli idi. Beləliklə, Kremlin divarları arasında dinc xalqa divan tutmaq planı hazırlandı. Bu plana gedən yolda həm Bakıda yaşayan ermənilərə qarşı hücumların təşkili, həm ruslara qarşı hansısa təxribatların törədilməsi, eyni zamanda, hakimiyyət dairələrinin iflic vəziyyətinə gətirilməsi və Azadlıq Hərəkatının önündə gedən insanlar arasında emissarların hazırlanması, içəridən təxribat planlarına şərait yaradılması kimi məkrli planlar yer almışdı. Milli mücadiləyə soxulmuş emissarlar: onların rolu nədən ibarət idi? Kimsə elə düşünməsin ki, 20 Yanvarda xalqımıza qarşı yönəldilən vəhşiliyin birbaşa günahkarlarına haqq qazandırmaq kimi əcaib bir fikrim var. Əksinə, xalqımızın yenilməzliyinin, mübarizə əzminin və genimizdən gələn hünər və rəşadətinin bir daha təstiqi olan 20 Yanvarın baş cinayətkarını da, onun əmrinə boyun əyən qulbeçələrini də həm biz, həm də bütün dünya tanıyır və bu barədə danışıb vaxt almağa ehtiyac görmürəm. Moskvanın ortasında, bu qanlı hadisəni törədənlərin gözü qarşısında özünün və ailəsinin həyatını risqə ataraq imperiya rəhbərliyini kəskin şəkildə ifşa edən Ulu Öndər Heydər Əliyevin, milyonların mübarizə əzmini özünə qaytaran, tərəddüddə olanları da qəti qərar verməyə cəsarətləndirən tarixi çıxışı və bu çıxışdan sonra ölkənin digər cəsarətli ziyalılarının dünyaya ədalət çağırışları, nəticədə, Kremlin gözlədiyinin əksinə olaraq, xalqın daha düşünülmüş və qətiyyətli mübarizəyə atılması, birmənalı olaraq bu xalqın yenilməzliyindən və mübarizliyindən xəbər verirdi.

Əgər Sumqayıt hadisələrini törətmək üçün Paşa ləqəbli erməni Qriqoryandan istifadə olunmuşdusa, bu dəfə öz içimizdən ələ alınmış emissarların əli ilə bu təxribatlar törədilirdi. Və bütün bunların sonunda hakimiyyəti yuxarıdan verilən göstərişlə iflic vəziyyətə gətirən Moskva, nəhayət, öz əli ilə yetişdirdiyi şəraiti bəhanə gətirərək, Bakıya ordu yeritdi. Bununla yanaşı, o zaman Milli Azadlıq Hərəkatının lokomotivi olan Azərbaycan Xalq Cəbhəsi daxilində parçalanma salmağa, radikal və liberal qanadlar adlanan tərəflərin bir-birinə rəqib deyil, düşmən münasibət bəsləməsinə də nail oldular ki, bu da hərəkatı daxildən iflic vəziyyətinə gətirib çıxardı və Bakıda, eləcə də, regionlarda baş verən hadisələr de-fakto nəzarətdən çıxmış oldu. Bu məqamda bir epizodu oxucuların diqqətinə çatırmadan ötə bilmərəm. AXC daxilində liberallarla radikallar arasında qarşıdurma pik həddə çatdığı 1989-cu il dekabr ayının ortaları idi. İsa Qənbərov çox inandığı yaxını kimi məni evinə dəvət etdi. Axşam saat 17:00 radələrində gəldim. Liberal qanadın bütün üzvləri burda idi. İsa Qəmbərov məni kənara çəkib dedi: Əbülfəz bəy, Etibar və Nemət indi Becan gildədi (AXC nəzarət qrupunun üzvü Becan Fərzəliyev nəzərdə tutulurdu). Sənə etibar edirəm. Get onlara, gör nə danışırlar? Mən dərhal ciddi şəkildə "Sən nə danışırsan, mən deyirəm siz bir araya gələsiniz, sən mənə sukalıq təklif edirsən? Davam elədi: Yox, sadəcə, Etibarın, Nemətin, Rəhimin məsələsi həll olunub. Onlar cəzaların alacaqlar. Biz istəmirik ki, Əbülfəz bəylə Nəcəf bəy də (AXC idarə heyətinin üzvü, milli fədai Nəcəf Nəcəfov nəzərdə tutulurdu) onların oduna yansınlar. Onları xilas eləməliyik. Təbii ki, mən Becan bəyin evinə getdim və həqiqətən, Nemət də, Etibar bəy də, bir neçə başqa AXC fəalı da burda idilər. Ancaq burda söhbət liberalların əleyhinə getmirdi, söhbət gərgin situasiyadan necə çıxmağın yollarının müzakirəsindən gedirdi...

1990-cı ilin 7-8 yanvar tarixlərində AXC rayon şöbələri İdarə Heyəti üzvlərinin toplantısına, qanunsuz olaraq konfrans səlahiyyətinin verilməsi və bəzi sağlam hərəkatçıların idarə heyətindən kənarlaşdırılaraq özlərinə lazım olan yeni üzvlərin gətirilməsi də, əminəm ki, məhz DTK-nın planı olmuşdu. Əsas məqsəd də gənc, çılğın Nemət Pənahlını AXC-nin idarə heyətindən kənarlaşdırmaq, onu daha da çılğınlaşdırmaq, hərəkat daxilində qarşıdurmanı maksimum həddə çatdırmaqdan ibarət idi ki, buna da nail oldular. Nemət Pənahlının sonrakı günlərdə Sovet Ordusunun tankları qarşısında əliyalın xalqın geri çəkilməsinə imkan verməməsi də, əvvəlcədən planlaşdırılmışdı və bunun üçün Nemənin daha da radikallaşması yönündə addımlar atılırdı. O zaman bütün bunları təcrübəsizliklə, siyasi naşılıqla əlaqələndirsək də, zaman keçdikcə niqabı düşən emissarların digər əməlləri kimi bu əməlləri də bilərəkdən, imperiya rəhbərlərinin planına xidmət edərək "hərəkat liderlərinin iradəsilə reallaşdığı çılpaqlığı ilə məlum oldu. Əlbəttə, Moskva Azərbaycanda azadlıq və torpaqların toxunulmazlığı uğrunda kükrəyən xalq hərəkatını söndürmək üçün dərs verəcəkdi. Bu, 20 Yanvarda, yaxud hansısa başqa bir gündə hökmən baş verəcəkdi. Çünki məhz Azərbaycanda getdikcə güclənən xalq hərəkatı SSRİ-nin iqtisadiyyatını diz çökdürmüş, ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Lakin bu "dərsin" miqyası az ola və "dərsverənlər"ə bəhanə üçün əsas verməmək olardı ki, buna nail olmağa da, məhz həmin emissarlar mane oldular. Götürülən niqabların altındakı həqiqətlər... 1998-ci ilin noyabr ayında Azərbaycanın böyük ziyalısı, ölməz Səməd Vurğunun yadigarı, rəhmətlik Yusif Səmədoğlunun "Moskovskoye novosti" qəzetinə verdiyi müsahibə, bu baxımdan, çox qaranlıq mətləblərin üzərinə işıq saldı. Həmin müsahibədə müxbirin sualına cavab verən Yusif bəy, keçmiş SSRİ-də, o cümlədən, Azərbaycanda yaranan xalq cəbhələrinin SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin əli ilə yaradıldığını bildirir. Müxbir onun özünün də AXC idarə heyətinin üzvü olduğunu xatırladanda isə cavab verir: "Bəli, mən, məhz SSRİ DTK-nın tapşırığı ilə ora getdim. Sədr olmalıydım. Ancaq yaranan gərginlikdə bunun mümkün olmadığını görüb, namizədliyimi geri götürdüm. Ancaq idarə heyətində çoxluq bizdə idi və sonradan AXC-nin sədrinin də DTK-nın ssenarisi ilə hərəkət etməsinə nail olduq." Keçmiş hərəkatçılar xatırlayarlar. 20 Yanvardan sonra, AXC ali məclisinin, martın 22-23-də Ağstafada keçirilən səyyar sessiyasında AXC sədri Ə.Elçibəyə etimad məsələsi gündəmə gəldi və ciddi ittihamlar, hətta DTK və MKİ-(ABŞ)-in agenti olduğu iddia edilirdi. Məsələni gündəliyə təklif edən idarə heyətinin üzvü Hikmət Hacızadə oldu. Yusif Səmədoğlu, İsa Qəmbər, Pənah Hüseynov, Arif Hacıyev, Tofiq Qasımov, Firidun Səməndərov da məsələyə dəstək verdilər. Lakin məclis üzvlərinin tam əksəriyyətinin tələbi ilə məsələ gündəlikdən çıxalıdı və istəklərinə nail ola bilmədilər. Sonradan məlum oldu ki, "Moskva" mehmanxanasının restoranında, 1990-cı il mayın əvvəllərində bir toy məclisində insanlığa yaraşmayan bir üsulla bəyin iyrənc videosunu çəkib, onu özlərinə tabe etdirə və DTK-nın ssenarisi ilə hərəkət etməyə məcbur etmişlər. Beləliklə, AXC rəhbərliyində yaranan radikallarla liberallar arasında (məhz ikincilər DTK ssenarisi ilə fəaliyyət göstərənlər olublar) qalan Ə.Elçibəy bundan sonra birbaşa liberalları seçdi və bütün məsələlərdə onların mövqeyindən çıxış etdi. Bu və bundan sonrakı digər faktlar hərəkatın içindəki DTK emissarlarını bizə tanıtdı. Ancaq təəssüf ki, o zaman hərəkat daxilindəki əksər qüvvələr onların niqabları altında əsl simalarını görə bilmədilər ki, nəticədə, sonrakı faciələrlə üz-üzə qalmalı olduq. Vicdanı qarşısında özünü mənəvi əzabdan xilas etməyə risk edərək Yusif Səmədoğlu həmin müsahibədə həqiqətləri söyləməsəydi, bəlkə də bizlər adlarını yuxarıda çəkdiyim və pərdə arxasında qalan, tanımadığımız digər emissarların gerçək üzünü, gec də olsa, xalqa göstərməkdə çətinlik çəkə bilərdik... Bu yerdə bir məqama da toxunmadan keçə bilməərəm. Milli mücadilənin ilk illərində yalnız təhsil aldığı Bakı Dövlət Universitetindəki "Yurd" birliyinin fəallarından biri olan, indi AXCP-nin sədri postuna sahiblənərək özünü az qala millətin xilaskarı(???) kimi həyasızcasına insanların gözünə dürtməyə çalışan Əli Kərimli, məhz 20 Yanvar hadisələrindən az sonra, həmin ilin may ayında AXC ali məclisinin Gəncədə keçirilən səyyar sessiyasında "Məclisin intellektual səviyyəsini yüksətmək" adı altında, yerdən seçilmədən ali məclisə üzv "seçildi". Həm də birinci səsvermədə yetərincə səs yığılmadı və yuxarıda adlarını sadaladığım emissarların təkidi ilə yenidən səs verməyə buraxıldı və bu dəfə "seçildi". Həmin dövrü yaxın keçmişimizdə baş verən digər məqamlarla yanaşı təhlil edərkən bu məqam məni hər zaman düşündürüb: əcəba, necə oldu ki, AXC-yə, məhz ildırım sürətilə Əli Kərimli daxil edildi? Az keçmədən "liberallar"ın, yeni emissarların hesabına AXC-də xüsusi fəallığı ilə nüfuz qazanan bu adamı kimlər və nə məqsədlə daxil etdilər Milli Azadlıq Hərəkatının özəyinə? Həmin dövrü vərəqləyərkən, Əli Kərimlinin Moskvada dərc olunan "Komsomolskaya pravda" qəzetinə 1990-cı ilin mart ayında verdiyi müsahibə köməyimizə çatdı. Həmin müsahibədə Sovet ordusunun Azərbaycana müdaxilə etməsinin qaçılmaz olduğunu, Bakıda avantüristlərin, təxribatçıların qarşısının alınmasının vacibliyini qeyd edirdi Əli "bəy"! Bu fakt kifayətdir ki, Ə.Kərimlinin Azərbaycan Milli Azadlıq Hərəkatının lokomotivi olan AXC-nin ali orqanına daxil edilməsinin və burda az zaman daxilində nüfuza mindirilməsinin arxasında hansı qüvvələr və hansı maraqlar durduğunu anlayaq. Bu, beli bükülmüş müxalifət oyunbazının bugünkü fəaliyyəti də, bu adamın həmişə kimlərinsə marağına xidmət göstərməyə can-başla hazır olduğunu bir daha təsdiq edir.

**TƏHMASİB NOVRUZOV**

# Müxalifət düşərgəsi - həyasızlığın son məkanı

## *Və ya rüsvayçı tarixə söykənən acı həqiqətlər*



***Azərbaycanda hər seçkiöncəsi AXCP-Müsavat qarşıdurması özünü daha qabarıq şəkildə göstərir. Hətta bu qarşıdurmanın ənənə şəklini alması iddiaları da özünü kifayət qədər doğrultmaqdadır. Yəni bu gün bu iki partiya arasında yaşanan ixtilaflar nə birinci, nə də sonuncudur. Bu, bir daha sübut edir ki, onlarda ümumi maraqlar deyil, şəxsi maraqlar hər şeydən üstün olduğuna görə həmin partiyalar arasında davamlı gərginlik yaşanır.***

Aydın olur ki, AXCP və Müsavat partiyaları arasında qarşıdurmalar, davamlı xarakter daşıyır. 1992-ci ildən başlayaraq AXCP-Müsavat arasında gözdə görünməsə də, bəzi hallarda daha kəskin xarakter alan qarşıdurma mövcuddur. Xüsusilə, qeyd etmək mümkündür ki, ənənəvi qarşıdurmalar hələ "Yurd" qrupunun daxilindən qaynaqlanaraq hazırkı həddə qədər inkişaf edib. Bəlli olduğu kimi, ötən əsrin hələ 90-cı illərin ortalarında parçalanmamış AXC-nin tərkibində yaradılan "Yurd"a rəhbərliyi Ə.Kərimli edib. "Yurd"un əsas məqsədi Əbülfəz Elçibəyin siyasi arenadan kənarlaşdırılması, eləcə də, Əli Kərimlinin cəbhənin sükanı arxasına keçməsi ilə bağlı olub ki, bu istiqamətdə davamlı işlər aparılıb. Hətta mərhum Elçibəyin haqqında partiyaya məxsus "Azadıq" qəzetində çirkin yazılar yazdıran Kərimli lideri barədə deyilməyəcək dərəcədə təhqirlər səsləndirirdi. Son hadisələr isə AXCP ilə Müsavat arasında dərin uçurum yarandığını göstərir.

### Mirmahmud Mirəlioğlu: "Müxalifət düşərgəsində bütün sahələrdə faydalı iş əmsalı sıfırdır"

Müxalifət düşərgəsində olan bir çox siyasi partiyaların liderləri Əli-İsa-Ariflərin ifrat dərəcədə böhtanlarına belə dözə bilməyən KXCP sədri Mirmahmud Mirəlioğlu bu ikiüzlü və satqınların qolçomaqlıq prinsipi apardıqlarını deyib: "Ona görə də, müxalifətin nə birliyi, nə də vahid mövqeyə gələ bilməsi mümkünsüzdür. Çünki partiya sədrləri biri digərini təhqir etməklə, hər sahədə birinci olmaq istəyirlər. Ancaq onlar, nəinki birinci, heç axırıncı da ola bilmir. Çünki düşərgədə qolçomaqlıq prinsipi var. Bu, heç də gözəl nəticə deyil".

### "Bugünkü müxaliflər 26 ildir ki, bir addım irəli, iki addım geri gedirlər"

M.Mirəlioğlu onu da bildirib ki, mövcud müxalifəti sirkə kimi özözünü partladacaq: "Bu 26 ildə hələ də seçkidə 2 faiz səs toplaya bilməyərək "mənəm-mənəmliklə" heç bir iş görmək olmaz. Biri deyir ki, ən böyük "güc" mənəm, çünki səfirlər mənimlə görüşür. Digəri bildirir ki, mənim yaşım səndən çoxdur, mən daha böyük müxalifətəm. Başqa biri də deyir ki, dünya məni tanıyır. Bütün bunlara görə, müxalifət vahid mövqeyə gələ bilmir. Müxalifətin hansı uğurundan danışmaq olar? İndi, ola bilsin, kimsə desin ki, Mirmahmud pessimistdir, amma bu, bir reallıqdır və 26 ildir hər şey öz yerindədir, heç bir dəyişiklik yoxdur. 26 ildir, bir addım irəli, iki addım geri gedən müxalifət intriqalarla baş qarışdırır və ölkənin siyasi həyatında ciddi iştirak edə bilmir. Bu, real faktdır və bunu gizlətmək də mümkün deyil. Çünki müxalifət artıq uçuruma doğru gedir" deyə M.Mirəlioğlu bildirib.

Maraqlısı da budur ki, seçkiərəfəsi dağıdıcı müxalifət təbliğat aparmaq əvəzinə, mitinq keçirmək istəyi uğurunda əlləşir. Bu yerdə adama deyərlər ki, bu, nə məzhəkədir? Hələ seçki keçirilməmiş ölkədə, nə bilim, "demokratiya" boğulur "iqtidar təzyiqlər edir", "imza toplamağa imkan vermirlər", "seçkilər saxta keçiriləcək", daha nələr, nələr... kimi sözlər işlətməklə, necə eybəcər, gülünc göründüklərini belə dərk etmirlər. Seçici səni tanımırsa, etibar etmirsə, sənə imza və yaxud da səs vermisə, buna hakimiyyət neyləsin?! Bir də, özünüz demişkən, müxalifətdə 26 il olmağınıza baxmayaraq, hələ indiyə qədər 150 imza belə toplaya bilmirsiniz. Topladığınız o imzaları da üzünüzə üzlük tutaraq, min bir tənələri götürməklə yığmısınız. Belə olan halda, hansı üzlə bir də mitinq və piket keçirirsiniz?

Ancaq xalq hər kəsi yaxşı tanıdığını bilir. Ayıbdır, vallah. Sonra da deyirlər ki, bəs ölkədə şərait yoxdur, bizə təzyiq edirlər-filan. Bu yerdə deyirlər, yalançının...

Deyirəm, adamda neçə sifət olar ki, özünü ortalığa atıb, desin ki, bəs mən də müxalifətəm və cəmiyyətdə nüfuzum var. Seçkidən sonra da qışqırıb-bağıracaqlar ki, bəs qoymayın, bəs xalq bizə səs verəcəkdi, hakimiyyət qoymadı-filan. Məncə, builki seçkilər bügünkü müxalifətin son seçkisi olacaq.

***R.HÜSEYNOVA***

# Bu dəfə "VİP" - "REAL" qarşıdurması gözlənilir

## *Əli Əliyevin fikrini dəyişməsi İlqar Məmmədovu çətin vəziyyətə saldı*



Qarşıdan gələn parlament seçkilərində "Vətəndaş və İnkişaf Partiyası"nın təmsil olunmayacağı haqqında qərar bəlli idi. Hətta müxalifət partiyasının sədri Əli Əliyev bir neçə dəfə mətbuata, eləcə də, sosial şəbəkələrə çıxaraq, qəti şəkildə seçkilərdə iştirak etməyəcəyini bəyan edib. Ancaq bu günlərdə məlum oldu ki, "VİP" sədri seçkilərə qatılmaq qərarını verib, hətta müəyyən olunmuş DSK tərəfindən onun namizədliyi belə qeydə alınıb.

### Qeydiyyata alınma məsələsinin altından kəskin qarşıdurma və siyasi rəqabətdən daha çox siyasi savaş qoxusu gəlir

Ə.Əliyevin qəfil qərar verib, imza toplaması isə, artıq onun düşərgənin digər cinahında təmsil olunan rəqiblərini çətin vəziyyətə salıb, hətta qıcıqlandırıb. Məsələ ondadır ki, müəyyən olunmuş DSK-da "VİP" sədrinin rəqibləri "REAL" partiyasının təmsilçiləridir. Onlar Vəkillər Kollegiyasının üzvü Cavad Cavadlı və bir müddət əvvəl, partiyadan istefa vermiş Azər Qasımlıdır. Yəni həm A.Qasımlının, həm də C.Cavadlının namizədliyi DSK tərəfindən qeydə alınıb. Fəqət, bu qeydiyyata alınma məsələsinin altından kəskin qarşıdurma və siyasi rəqabətdən daha çox, siyasi savaş qoxusu gəlir.

Artıq "REAL" tərəfdarları ilə "VİP" təmsilçiləri arasında kəskin söz savaşlarına start verilib. Sosial şəbəkələrdə Ə.Əliyevi hədəfə alan İ.Məmmədovun partiyadaşları "VİP" sədrini sözübütöv olmamaqda, hərdəmxəyallıqda, yalan danışmaqda, onları aldadıb, son anda seçkilərə qatılmaq qərarnı verməkdə suçlayırlar.

### Əli Əliyevin bu qərarı müxalifət düşərgəsində onun başını çox ağrıdacaq

Daha bir maraqlı məqam isə, Ə.Kərimlinin AXCP-sindən və "Milli Şura"dan doğur. Belə ki, parlament seçkilərini, öz təbirincə, "boykot" edəcəyini bəyan etmiş Ə.Kərimli "VİP" sədrinin daha öncələr seçkilərə getməmək qərarına dəstək göstərmişdi. Lakin sonradan onun fikrini dəyişməsi Kərimlinin "facebook"dakı söyüş qrupları tərəfindən hədəfə alındı. Bu gün, artıq cəbhəçilər də "REAL"çılar kimi, Ə.Əliyevi kəskin şəkildə təhqir obyektinə çeviriblər.



Ümumilikdə götürdükdə isə, "VİP" sədrinin seçkilərə qatılmaq qərarını verməsi, daha dəqiq desək, seçimini dəyişməsi, onun öz səhvini başa düşməsi anlamını daşıyır. Hər halda, ictimai-siyasi proseslərin əsas amili olan seçkilərdə iştirakı siyasi fəallığın da göstəricisi kimi başa düşülə bilər. Görünür, Ə.Əliyevin bu qərarı müxalifət düşərgəsində onun başını çox ağrıdacaq.

***Rövşən RƏSULOV***

## Qubada həmkəndlisini bıçaqlayan şəxs saxlanılıb



Qubada həmkəndlisinə qarşı xuliqanlıq edən şəxs saxlanılıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətinin Quba regional qrupundan AZƏRTAC-ın bölgə müxbirinə verilən məlumata görə, rayonun Birinci Nügədi kəndinin sakini Nəbi Şərifovun kəsilmiş-deşilmiş bədən xəsarəti diaqnozu ilə Quba Rayon Mərkəzi Xəstəxanasına gətirilməsi barədə Rayon Polis Şöbəsinə məlumat daxil olub.

Polis əməkdaşlarının keçirdikləri istintaq-əməliyyat tədbirləri nəticəsində xuliqanlıq hərəkətləri zəminində zərərçəkənə xəsarət yetirdikdən sonra gizlənən kənd sakini, 55 yaşlı Rauf Muradov gecə saatlarında saxlanılıb. O, dindirilmə zamanı törətdiyi əməli etiraf edərək, Nəbi Şərifova bıçaqla xəsarət yetirdiyini bildirib.

## Misirdə dünyanın ən qədim şəkilli kitabı tapılıb

Arxeoloqlar Misirdə dünyanın ən qədim şəkilli kitabını tapıblar. Təxminən 4 min il əvvəl hazırlandığı güman edilən bu unikal kitabda fironların ölümdən sonra Osiris tanrısının yanına getməsi izah edilir.

AZƏRTAC MENA informasiya agentliyinə istinadla xəbər verir ki, fironun tabutunun üzərində eramızdan əvvəl 2055-1795-ci illərdə yazılmış "İki yolun kitabı" adlanan bu artefaktda minlərlə talisman və ilahi yazılar var. Onların hamısı ölümdən sonrakı həyat haqqındadır. Talismanların əksəriyyəti piramidalarda olan mətnlərdən köçürülüb və ancaq fironlara aid olub. Bu cür təsvirlər və yazılar Qədim Misirin bir çox abidələrində - obelisklər, sərdabalarda, habelə papiruslarda mövcuddur. Arxeoloqlar qeyd ediblər ki, mətn və şəkillər fironun dəfnindən sonra kahinlərin nəzarəti altında işlənilib. Qədim Misirdə dəfn ayinlərində iştirak edən kahinlər belə düşünüblər ki, fironlar Osiris tanrısının hüzurunda daha xoşbəxt həyat sürəcəklər.

**_Dünya bazarında neftin qiyməti, vacib məsələlərdən biri olaraq, cari ildə də bütün ölkələrin diqqət mərkəzindədir. Neft ixrac edən ölkə kimi, Azərbaycan üçün də dünya bazarında "qara qızıl"ın qiymətinin diqqət mərkəzində olacağına şübhə ola bilməz. Çünki makroiqtisadi vəziyyət ən aktual məsələdir və hər zamankı kimi, cari ildə də öz aktuallığını qoruyacaq._**



# Neftin qiyməti cari ildə necə olacaq?

Cari ildə neftin qiymətinin necə dəyişəcəyi sualı ortaya çıxır. Əslində, neft ixracatçısı olan Azərbaycanın hər bir vətəndaşının neftin qiymətləri ilə bağlı maraqlanması və düşünməsi başadüşüləndir. Uzun zamandır ki, dünya bazarlarında neftin qiymətində elə bir fantastik qiymət dəyişikliyi, ələlxüsus, azalma müşahidə olunmur. Bu sahədə stabilliyin olduğu təkzib edilə bilməz. Bu stabillik hələ 2016-cı ildən təşəkkül tapıb və ABŞ-ın qiymətlə bağlı səyləri uğursuzluqla nəticələnib. Daha dəqiq desək, Birləşmiş Ştatların "qara qızıl"ın qiymətini aşağı salmaq cəhdləri baş tutmayıb. Çünki neft hasil edən ölkələr ABŞ-ın bu məqsədinə qarşı çıxaraq, dünyanın fövqəldövlətinin neftin qiymətini aşağı salmaq cəhdlərinə mane oldular. Xüsusən də, Səudiyyə Ərəbistanını qeyd etmək lazımdır ki, bu neft ixracatçısı Birləşmiş Ştatlarla müttəfiq olsa da, neftin qiymətini, nəticədə isə, öz maraqlarını qorumağı üstün tutaraq, ABŞ-ın qiymətlərin aşağı salınması niyyətinin baş tutmasının qarşısını aldı.

Doğrudur, neft ixrac edən ölkələrin öz maraqlarını qoruması üçün neftin qiymətinin aşağı salınmasına qarşı həmrəyliyi təqdirəlayiqdir və bu, neftin qiymətinin stabilliyi üçün vacib şərtdir. Lakin bu həmrəylik heç də yeganə şərt deyil və bundan daha güclü təsirlərini qeyd etməliyik və etiraf etməliyik ki, neftin qiyməti siyasi proseslərdən daha çox asılıdır. Daha dəqiq desək, dünyada baş verən siyasi proseslər neftin qiymətinə bilavasitə təsir etdiyi günün reallığıdır və hər zaman olduğu kimi, həmin təsirlər bu gün də öz aktuallığını qoruyur. Söhbət heç də təkcə qiymətlərin aşağı düşməsindən getmir. Ola bilsin, siyasi proseslər qiymət artımına səbəb ola bilər. Nümunə üçün qeyd edə bilərik ki, İranla ABŞ arasında yaranan gərginliyin fonunda neftin qiyməti gözlənilmədən bahalaşdı və bu özü, deyilənlərin əyani sübutu və bahalaşma proqnozunun təsdiqidir. Əgər Birləşmiş Ştatların İranla heç bir toqquşmasının olmayacağı təqdirdə, ölkələr arasındakı narazılıqlar neftin qiymətinin 70 dollara çatması ilə nəticələndisə, deməli, regionda hərbi əməliyyatlar baş tutarsa, "qara qızıl"ın qiymətinin daha yuxarı olacağı gözləniləndir. Regionda müharibələrin və hərbi əməliyyatların başlaması heç də arzu olunan deyil, sadəcə, məqsəd ən gərgin vəziyyətin belə neftin qiymətini aşağı salmayacağını, əksinə, artıracağını vurğulamaqdır.

Xatırladaq ki, regionda gərginlik təkcə ABŞ və İranla əlaqədar deyil və Liviyadakı vətəndaş müharibəsi də diqqət mərkəzindədir. Eyni zamanda Venesuelada baş verən hadisələr də, qiymətlərə təsirsiz ötüşə bilməz. Ümumiyyətlə, artıq şahidi olduq ki, müşahidə olunan gərginlik neftin qiymətinin aşağı düşməsinə yox, qiymətin qalxmasına səbəb oldu. Deməli, geosiyasi proseslərdə gərginlik, heç də neftin qiymətinə mənfi təsir etməyəcək, daha dəqiq desək, "qara qızıl"ın qiymətini aşağı salmayacaq. Əksinə, bu, qiymət artımı deməkdir və bəlkə də dəfələrlə.

Az əvvəl qeyd etdiyimiz kimi, ABŞ, neftin qiymətinin aşağı salınmasının marağındadırsa da, buna nail olacağına ölkənin özünün də zərrə qədər ümidi yoxdur. Çünki dünyanın bu fövqəldövləti hazırda təkcə İranla deyil, Türkiyə, hətta digər bir fövqəldövlət olan Rusiya ilə də arzu etdiyi münasibətdə deyil. Hətta ABŞ üçün bu arzuolunmaz münasibətlərin fonunda Rusiya prezidenti Vladimir Putinin Türkiyəyə neft kəmərinin açılışı üçün getməsi, ümumiyyətlə, Rusiya ilə Türkiyə arasındakı son zamanlar isti münasibətlər Birləşmiş Ştatları heç də qane etmir və bu da, həmin dövlətin mənafelərinin dəstəklənməməsi, strategiyasının sual altında qalması, eyni zamanda, neftin qiymətinin aşağı salınması arzusunun puça çıxması deməkdir. Beləliklə, çox əminliklə deyə bilərik ki, ABŞ nə qədər nəhəng, nə qədər hegemon dövlət olsa belə, dünyanın hazırkı geosiyasi mənzərəsində heç nəyə, ələlxüsus, neftin qiymətinə mənfi təsir etmək, yəni "qara qızıl"ın qiymətinin aşağı salınması imkanına malik deyil.

Dünyada baş verən siyasi proseslərlə yanaşı, iqtisadi amillərin də təbii ehtiyatların qiymətinə əhəmiyyətli təsirləri danılmazdır. Malların qiymətləri, hər şeydən əvvəl, tələb və təklif arasındakı nisbətdən asılıdır. Tələb əgər təklifi üstələyirsə, yəni təklif olunan mallardan həmin mallara olan tələb daha çoxdursa, belə bazarlara tələb bazarı deyirlər və bu halda, malların qiyməti artır. Əks halda, yəni təklif tələbi üstələyirsə, belə bazarlara təklif bazarı deyilir və bu halda, qiymətlər ucuzlaşır və aşağı düşür. Deməli, neftin də qiymətinin həmin bazarların hansı bazara aid olmasından, tələb və təklif arasındakı münasibətlərdən asılılığı da danılmazdır. Doğrudur, tələb və təlkif arasındakı nisbətin necə olacağını əvvəlcədən söyləyərkən, yanlışlığa yol verməк olarsa da, ən azından, son hadisələr təsdiq edir ki, neftə olan tələb təklifi üstələyir və bu fakt özü də neftin bahalaşacağı proqnozunu verməyə əsas verir.

Ümumiyyətlə, neftin qiymətinin 70 dollar deyil, hətta 60 dollar olması belə neft ixrac edən ölkələri qane edir. Məsələn, Azərbaycan üçün bu qiymət qənaətbəxş hesab edilir. Unutmaq lazım deyil ki, keçən il ölkəmizin dövlət büdcəsində neftin qiyməti 60 dollar səviyyəsində götürülmüşdüsə, bu il bu, 55 dollar səviyyəsindədir. Azərbaycan hökumətinin riski artırılmayıb, əksinə, daha da azaldılıb. Bu isə, öz növbəsində, onu deməyə əsas verir ki, cari ildə neftin qiyməti baxımından, Azərbaycan heç bir təhlükə ilə qarşılaşa bilməz. Əksinə, hazırkı qiymətlərdə ölkəmizin iqtisadi potensialını daha da gücləndirməyə, iqtisadi və sosial layihələri davam etdirməyə imkan verir.

**_İnam HACIYEV_**



# Pensiya artımları nə vaxt veriləcək? - Nazirlikdən açıqlama

"Pensiyaların artırılması istiqamətində növbəti addım kimi, bu ay ərzində əmək pensiyaları indeksləşdiriləcək artırılacaq". Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə Əlaqələr və Kommunikasiya şöbəsinin müdiri Fazil Talıbov məlumat verib. O bildirib ki, "Əmək pensiyaları haqqında" Qanunda əmək pensiyalarının ildə bir dəfə ölkə üzrə orta aylıq nominal əməkhaqqının illik artım tempinə uyğun olaraq indeksləşdirilməsi nəzərdə tutulur.

Cari il üçün pensiyaların indeksləşdirilərək artırılması da Dövlət Statistika Komitəsindən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə bu ay ərzində təqdim olunacaq rəsmi məlumatda 2019-cu il üzrə ölkəmizdə orta aylıq nominal əməkhaqqının artım tempi göstəricisi əsasında həyata keçiriləcək. Pensiyaların 2020-ci ilin 1 yanvar tarixinə olan məbləği həmin göstəriciyə uyğun şəkildə və cari ilin əvvəlindən indeksləşdirilərək artırılacaq. Artım cari ilin əvvəlindən tətbiq ediləcək və yanvar ayının pensiyalarına ediləcək artımlar fevral ayının pensiyası ilə birgə veriləcək.

Pensiyaların indeksləşdirilərək artırılması pensiyaçıların təxminən 93-94 faizinə şamil olunacaq. Qalan pensiyaçılar isə "Əmək pensiyaları haqqında" Qanunun 20-ci maddəsindəki qruplardır (dövlət qulluqçuları, hərbi qulluqçular, xüsusi rütbəli şəxslər, millət vəkilləri və b.) ki, onların pensiyalarının artımı qanunvericilikdə nəzərdə tutulan başqa mexanizm əsasında həyata keçirilir. Qanunvericiliyə uyğun olaraq, bu ay ərzində sığortaolunanların fərdi hesablarındakı pensiya kapitallarının da ötən il üzrə inflyasiya göstəricisinə uyğun indeksasiya edilərək artırılması təmin ediləcək.

# "Ölkəmizdə korrupsiyaya qarşı mübarizə tədbirləri ötən il də uğurla davam etdirilib"




Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsinə uyğun olaraq, ölkəmizdə korrupsiyaya qarşı mübarizə sahəsində beynəlxalq standartlara cavab verən institusional, qanunvericilik və inzibati tədbirlər 2019-cu ildə də uğurla davam etdirilib. AZƏRTAC xəbər verir ki, bunu yanvarın 15-də Prezident Administrasiyasının hüquq-mühafizə orqanları ilə iş şöbəsinin əməkdaşı Ceyhun Kazımov Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsində ilin yekunları ilə bağlı təşkil olunan mətbuat konfransında deyib.

C.Kazımov bildirib ki, ötən illərdə Açıq hökumətin təşviqi və korrupsiyaya qarşı mübarizə üzrə Milli Fəaliyyət planlarının icrasının dövlət orqanları tərəfindən yüksək səviyyədə yerinə yetirilib. Hazırda Azərbaycan Açıq Hökumət Platforması və Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya Açıq hökumətin təşviqinə dair yeni Milli Fəaliyyət Planının hazırlanması istiqamətində iş aparırlar.

Diqqətə çatdırılıb ki, korrupsiyanın qarşısının alınması sahəsində maarifləndirmənin rolunun artırılması məqsədilə "Azərbaycan Antikorrupsiya Akademiyası" layihəsi çərçivəsində dövlət qurumlarının əməkdaşlarına müxtəlif istiqamətlər üzrə çoxsaylı təlimlər keçirilir. Bu sahədə fəaliyyət ixtisaslaşmış beynəlxalq təşkilatlar tərəfindən də dəstəklənir. C.Kazımov korrupsiyaya qarşı həyata keçirilmiş mühüm qabaqlayıcı institusional tədbirlər çərçivəsində "ASAN xidmət" və "DOST" mərkəzlərinin sayının və əhatə dairəsinin genişləndirilməsinin xüsusi əhəmiyyət daşıdığını vurğulayıb.

# Ötən il daşınmaz əmlaka dair 262 minədək çıxarış verilib




2019-cu ildə ölkə üzrə daşınmaz əmlaka dair 262 minədək çıxarış verilib. Bu, 2018-ci illə müqayisədə 16,5 faiz çoxdur. Əmlak Məsələləri Dövlət Komitəsindən AZƏRTAC-a bildirilib ki, qeydiyyata alınan əmlakın 77 mindən çoxu (29,5 faiz) ilkin, 185 minə yaxını (70,5 faiz) isə təkrar qeydiyyata aiddir. Bunlardan 44 minədək fərdi yaşayış və bağ evi, 75,5 minədək mənzil, 13 minədək torpaq sahəsi, 4,5 minədək qeyri-yaşayış binası, 1000-dək əmlak kompleksi, 7049-u qeyri-yaşayış sahəsi, 75-i çoxmərtəbəli yaşayış binası, 24-ü isə çoxillik əkmələrdir.

Keçən il 224 minədək daşınmaz əmlakın texniki pasportu tərtib edilib. Eyni zamanda, 43,5 mindən çox ipoteka müqaviləsi, 4309 yüklülük (icarə, istifadə) dövlət qeydiyyatına alınıb, hüquqi və fiziki şəxslərə dövlət reyestrindən 250 minədək məhdudiyyət arayışı verilib. Daşınmaz Əmlakın Dövlət Reyestri Xidmətinə istismara icazə aktı daxil olan 280-dək bina üzrə 11 min mənzilin çıxarışı hazırlanıb.

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

16 yanvar

# SƏS

Son səhifə



## Kenan üşüyən Sinemin qayğısına belə qaldı

Türkiyəli aktyor-aparıcı Kenan İmirzalıoğlu aktrisa xanımı Sinem Kobal ilə mərasimlərin birinə gələrkən jurnalistlərin fotokameralarına tuş gəlib. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, Kenan media mənsublarına "Sinemə soyuq olmasın" deyərək gəldiyi tədbirə daxil olub. Cütlük mərasim bitdikdən sonra yenidən jurnalistlərlə qarşılaşıb. İmirzalıoğlunun üşüyən həyat yoldaşına pencəyini verməsi də media mənsublarının fotokameralarından yayınmayıb.

## Həkimdən xəbərdarlıq: Qızardılmış yeməklərdən uzaq durun!



Gündəlik qida rasionumuzda qızardılmış yeməklər üstünlük təşkil edir. Lakin həmin qidaların tərkibində yüksək kalori və çox miqdarda yağ olur. Bu, da II tip şəkərli diabet və piylənməyə, ürək-damar sisteminin patologiyasına şərait yaradır.

Həkim-diyetoloq Ləman Süleymanova bu barədə AZƏRTAC-a deyib: "Qızartma zamanı qidanın tərkibində olan vitamin və mikroelementlər parçalanır, nəticədə konserogenlər, sərbəst radikallar və transyağlar əmələ gəlir. Həmin maddələr isə orqanizm üçün çox ziyanlıdır və bir çox xəstəliklərin, o cümlədən xərçəngin əmələ gəlməsinə səbəb olur".

Onun verdiyi məlumata görə, qızartma zamanı az miqdarda kərə yağından istifadə etmək lazımdır. Bir dəfə yemək hazırlanmış yağda ikinci dəfə heç nə qızardılmamalıdır. Duru yağlara isə qızartmalarda deyil, salatların tərkibində yer vermək məsləhətdir.

Həkim-diyetoloqun fikrincə, qızardılmış yeməklər əvəzinə sobada pörtlədilmiş qidalardan istifadə etmək daha yaxşıdır, çünki həmin proses zamanı onun tərkibindəki elementlər parçalanmağa daha az məruz qalırlar: "Xolesterin onunla reaksiyaya girən maddələrdən asılı olaraq zərərli və faydalı ola bilər. Qızardılmış qidaları qəbul edərkən zərərli xolesterin artır. Ona görə də həmin qidalardan mümkün qədər uzaq olmaq məsləhətdir. Tərəvəzlər vitaminlərlə zəngin olduğu üçün onları tam qızartmaq deyil, qaynatmaq lazımdır".

## "Facebook" onlayn ödəmə xidmətini işə salır




"Facebook" şirkəti "Facebook Pay" elektron ödəmə sistemini işə saldığını elan edib. Bu barədə məlumat şirkətin saytında yerləşdirilib. Məlumatda "Facebook Pay" xidmətinin insanlara "Facebook", "Messenger", "Instagram" və "WhatsApp"da rahat, təhlükəsiz, etibarlı ödəniş aparmasına imkan yaradacağı bildirilir. Yeni xidmət ödəmə informasiyasının əlavədə saxlanmasına kömək edəcək ki, nəticədə istifadəçi nəsə almaq istəyərkən ödəmə məlumatını yenidən daxil etməyəcək.

Xidmət hələ ki ABŞ ərazisində yaşayan "Facebook" və "Instagram" istifadəçiləri üçün istifadəyə veriləcək. Şirkət xidmətin gələcəkdə digər ölkələrdə yaşayan istifadəçilər üçün də əlçatan olacağını bildirir.

## Rayan Giqqz 400 min funt sterlinq mükafat aldı



Futbol üzrə Uels millisinin baş məşqçisi Rayan Giqqz ölkənin futbol assosiasiyası tərəfindən 400 min funt sterlinq məbləğində mükafatlandırılıb. Xarici KİV-lərin yaydığı məlumatda deyilir ki, baş məşqçiyə mükafat komandasının Avropa çempionatının final mərhələsinə vəsiqə qazanmasına görə verilib. UEFA "Avro-2020"nin hər bir iştirakçısına 8 milyon funt sterlinq ödəyəcək. Uels Futbol Assosiasiyası isə məbləğin üçdə iki hissəsini oyunçular və yığmada işləyən şəxslər arasında bölüşdürməyi planlaşdırır.

Qeyd edək ki, bu ilin iyununda keçiriləcək "Avro-2020"nin bir neçə oyunu Bakı şəhərində keçiriləcək.

## Yaponiyalı nazir uşağa qulluq üçün məzuniyyət götürəcək



Yaponiyanın Ətraf mühit naziri Şinciro Koizumi yeni doğulacaq körpəsi üçün iki həftəlik məzuniyyət götürməyi planlaşdırır. NHK telekanalı xəbər verir ki, Ş.Koizumi məzuniyyət müddətində rəhbərlik etdiyi nazirliyin fəaliyyətinə zərər vurmamaq üçün qısa iş günü və məsafədən idarəetmə formalarından istifadə etməyi nəzərdə tutur. Məzuniyyət dövründə Ş.Koizuminin video müşavirələr keçirəcəyi və elektron poçt vasitəsilə əməkdaşlarla əlaqə saxlayacağı bildirilir. Telekanalın məlumatına görə, nazir onun həyat yoldaşının hamilə qaldığı məlum olduqdan sonra bu məzuniyyət üzərində düşünməyə başlayıb. Ş.Koizumi bu addımı ilə həyat yoldaşı, tanınmış model və teleaparıcı Kristel Takiqavaya ilk övladlarına qulluqla bağlı yardım etməklə yanaşı, həm də yapon cəmiyyətində formalaşmış sindromu dağıtmağa çalışır. Bildirilir ki, nazirin bu addımı hakim Liberal Demokratik Partiyanın konservativ qanadı tərəfindən tənqidi qarşılanıb.

## ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Təhsildə qiymətləndirmə və monitorinq ixtisası üzrə II kurs magistri Dəmirçili Nərmin Bəhruz qızının adına verilmiş magistr bileti itdiyi üçün etibarsız sayılır.

## Ebru Gündeş 25 milyonluq villasından köçür



Türkiyəli müğənni Ebru Gündeş Kanlıcada uzun illər yaşadığı əkiz sarayından köçmək qərarına gəlib. SİA-nın türk mətbuatına istinadən verdiyi xəbərə görə, 9 yaşlı qızı Alara ilə birlikdə yaşayan Gündeş başqa yerə köçəcək. İfaçı illər öncə 25 milyona aldığı villasını hazırda boşaltmaqla məşğuldur. Gündeşin meşədə yeni aldığı malikanəsinin qiyməti təxminən 13 milyondur. Qeyd edək ki, Ebru Gündeşə həmin villanı həyat yoldaşı Rza Zərrab bağışlamışdı.

**Baş redaktor:**
Bəhruz Quliyev
**Baş redaktorun müavinləri:**
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 4600